15 oktyabr 2021 №78 (1855)
www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
Qəzet 1991-ci ilin yanvarından çıxır

## Keçmiş məcburi köçkünləri doğma yerlərə ən qısa zamanda qaytarmaq istəyirik

Azad edilmiş ərazilərlə bağlı xüsusi investisiya proqramı qəbul edilib. Cari il üçün nəzərdə tutulmuş məbləğ təqribən 1.3 milyard ABŞ dolları təşkil edir. Sərmayə qoyuluşu əsasən infrastruktur layihələrinədir. Bu ilin sonunadək sahəsi 10 min kvadrat kilometrə bərabər olan azad edilmiş ərazilərin elektrik enerjisi ilə təminatı tam başa çatacaq.

Hazırda biz avtomobil və dəmir yolları inşa edirik. Füzulidə yerləşən yeni hava limanı hazırdır. Artıq o, ilk təyyarələri qəbul edib. Biz onu səkkiz aya inşa etmişik. Daha iki hava limanının inşası davam edir. İki şəhərin baş planı təsdiq edilib və işlərə start verilib. Yəni, biz işlərə çox fəal başlamışıq və planımız keçmiş məcburi köçkünlərin doğma evlərinə ən qısa zamanda qaytarılmasıdır.

Prezident İlham Əliyev bu sözləri oktyabrın 7-də İtaliyanın "La Repubblica" qəzetinə müsahibəsində deyib. Dövlət başçısının videoformatla müsahibəsinin tam mətni oktyabrın 13-də rəsmi mətbuatda dərc olunub. Prezident italyan jurnalistin Ermənistan-Azərbaycan münaqişəsinin başa çatması, işğaldan azad olunmuş ərazilərin bərpası, regionda yaranmış vəziyyət, Azərbaycanın İtaliya ilə münasibətləri və digər məsələlərə dair sualları cavablandırıb.

davamı səh. 2-də

## Mədəniyyət naziri Anadolu Agentliyinə müsahibə verib

"Qarabağ Azərbaycanın ən gözəl bölgələrindən birinə çevriləcək". Mədəniyyət naziri Anar Kərimov bu sözləri Türkiyənin Anadolu Agentliyinə müsahibəsində deyib.

Nazir bildirib ki, hökumətin əsas vəzifəsi işğaldan azad edilən bölgələri bərpa etmək və yenidən qurmaqdır: "Prezident İlham Əliyevin elan etdiyi "Böyük Qayıdış" proqramında tarixi və mədəni abidələrin bərpası da böyük yer tutur. İnsanlarımızın, mədəniyyətimizin, Azərbaycan ruhu və kimliyinin o bölgəyə dönməsi üçün mərhələli plan tətbiq edirik. Mədəni abidələrin vəziyyətini araşdırmaq və inventarlaşma üçün bölgəyə mütəxəssislər göndərmişik. Bəzi bölgələrdə artıq bərpa işlərinə başlanılıb. Prezident İlham Əliyev tərəfindən Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşada 3 məscid və 2 kilsəni bərpa edirik".

İşğaldan azad olunmuş bölgələrdə Mədəniyyət Nazirliyi tərəfindən aparılan ilkin monitorinqlər barədə danışan Anar Kərimov bu ərazilərdəki tarixi, mədəni, dini abidələrin 95 faizinin dağıdıldığını deyib: "Ermənilərin Qarabağda dağıdıb viran qoyduqları muzeylər, məscidlər, abidələr tək Azərbaycan xalqının mədəni irsinə deyil, bütün İslam dünyasına, ümumilikdə isə, bəşər mədəniyyətinə qarşı vandalizm aktıdır".

A.Kərimov vurğulayıb ki, məqsədimiz təkcə abidələri bərpa etmək deyil, bu torpaqlarımıza xalqımızın ruhunu, ənənələri, dəyərləri geri qaytarmaq və bölgəni canlandırmaqdır.

# Nizami dühasının əsrlərdir azalmayan ziyası

### Mütəfəkkir şairin 880 illiyinə həsr olunan "İşıq festivalı"

Dahi Azərbaycan şairi və mütəfəkkiri, dünya ədəbiyyatının böyük söz nəhəngi Nizami Gəncəvinin 880 illiyi münasibətilə ölkəmizdə və xaricdə müxtəlif tədbirlər keçirilir, mütəfəkkir ədibin bəşəri ideyaları diqqət mərkəzinə çəkilir.

Oktyabrın 14-də Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin qarşısında açıq havada dahi söz ustadının bənzərsiz əsərlərinə həsr olunmuş miniatürlər əsasında "İşıq festivalı. Nizami Gəncəvi" adlı audiovizual layihənin açılış mərasimi keçirildi.

Mədəniyyət Nazirliyinin təşkilatçılığı və bir sıra dövlət qurumlarının dəstəyi ilə "Nizami Gəncəvi İli" çərçivəsində reallaşdırılan layihə ədibin zəngin poetik-fəlsəfi irsinə daha böyük ictimai maraq cəlb etmək məqsədi daşıyır.

Mərasimdə Prezident Administrasiyası Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, mədəniyyət naziri Anar Kərimov, nazirin birinci müavini Elnur Əliyev, nazir müavini Sevda Məmmədəliyeva, bir sıra ölkələrin Bakıdakı səfirləri, tanınmış elm, mədəniyyət və incəsənət xadimləri iştirak edirdilər.

Festival başlamazdan öncə jurnalistlərə açıqlama verən mədəniyyət naziri Anar Kərimov "Nizami Gəncəvi İli" çərçivəsində nazirlik tərəfindən müxtəlif layihələrin həyata keçirildiyini dedi, "İşıq festivalı"nın da bu tədbirlərin davamı olduğunu qeyd etdi:



"Nizami Gəncəvinin bu gün də insanları mənəvi-əxlaqi kamilləşməyə çağıran ölməz "Xəmsə"sinin motivləri üzrə çəkilmiş miniatürlərin söz ustadının adını daşıyan muzeyin fasadında canlandırılması ilə Bakı şəhərində möhtəşəm bir mənzərəyə şahidlik edirik. Festivalı keçirməkdə əsas məqsədimiz müxtəlif ölkələrdə – Rusiya Milli Kitabxanası, İstanbulda Topqapı Saray Muzeyi Kitabxanası, Kembric Universiteti Fitzuilyam Muzeyi, Harvard İncəsənət Muzeyində qorunub saxlanılan "Xəmsə" motivli miniatürlər vasitəsilə dünya ədəbiyyatında məxsusi yerə malik Nizami yaradıcılığını ictimaiyyətin diqqətinə çatdırmaqdır. Şairin daim gərəkli əsərlərindən müxtəlif süjetlər işıq seli ilə canlandırılaraq möhtəşəm bir mənzərə yaradacaq. Vətəndaşlarımızı festival ərzində bu audiovizual görüntüyə baxmağa dəvət edirik".

Noyabrın sonunda "Nizami həftəsi" keçirməyi planlaşdırdıqlarını söyləyən nazir vurğuladı ki, həftə ərzində ölkəmizdə görkəmli şairə ithaf edilən tamaşalar, konsertlər və təqdimatlar təşkil olunacaq.

Sonra qonaqlar Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin fasadında "Xəmsə"nin motivləri üzrə çəkilmiş audiovizual görüntüyə baxdılar.

Bildirək ki, 3D audiovizual proyeksiya formatında reallaşan festival oktyabrın 16-dək davam edəcək.

## Muzeylərdə kolleksiyaların toplanması: dövrün çağırışları və sosial məsuliyyət

Xəbər verdiyimiz kimi, 13-15 oktyabr tarixində Azərbaycan Milli Xalça Muzeyində Beynəlxalq Muzeylər Şurası (İCOM) Azərbaycan Milli Komitəsi, İCOM-un Muzey İdarəçiliyi (İNTERCOM) və Etnoqrafiya Muzeyləri və Kolleksiyaları (İCME) beynəlxalq komitələrinin birgə əməkdaşlığı ilə "Muzeylərdə kolleksiyaların toplanması siyasətinin dəyişdirilməsi: liderlik və sosial məsuliyyət zərurəti" adlı konfrans keçirilir.




Mədəniyyət Nazirliyi və Azərbaycan Milli Xalça Muzeyinin dəstəyi ilə hibrid (əyani və onlayn) formada keçirilən konfransın açılışında Rusiya, Sloveniya, Xorvatiya, Almaniya, Rumıniya və Niderlanddan mütəxəssislər, eləcə də İCOM-un beynəlxalq komitələrinin sədrləri iştirak edirlər.

Konfransı İCOM Azərbaycan Milli Komitəsinin sədri, Azərbaycan Milli Xalça Muzeyinin direktoru Şirin Məlikova açaraq tədbirin əhəmiyyəti və mövzunun aktuallığından danışıb.

davamı səh. 3-də



## Müstəqilliyimizin 30 yaşını böyük Zəfər ruhu ilə qarşılayırıq

Oktyabrın 18-də Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsinin 30 ili tamam olur. 1991-ci il oktyabrın 18-də Ali Sovet "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı qəbul edib. Sənəddə Azərbaycan Respublikasının 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğu qeyd edilmişdi.

Bu günlərdə Milli Məclisin müzakirəsinə çıxarılan "Müstəqillik Günü haqqında" qanun layihəsi isə Cümhuriyyətlə Azərbaycan Respublikası arasında tarixi varisliyi hüquqi müstəvidə bir daha təsbit edir. Qanun layihəsinə əsasən, mayın 28-i Müstəqillik Günü, oktyabrın 18-i Müstəqilliyin Bərpası Günü elan olunacaq. İndiyədək təqvimimizdə 28 May Respublika Günü, 18 Oktyabr Azərbaycanın Dövlət Müstəqilliyi Günü idi.

Müstəqillik tarixinin ən ümdə məsələsini ötən il Vətən müharibəsində həll edən Azərbaycan Respublikası 30 yaşını böyük Zəfər ruhu ilə, qalib dövlət kimi qarşılayır.

## "Azad edilmiş ərazilərdə bütün abidələr qorunacaq, bərpa ediləcək"

6-20 oktyabr tarixində Parisdə UNESCO-nun İcraiyyə Şurasının 212-ci sessiyası keçirilir. Sessiyada Azərbaycanın UNESCO-dakı daimi nümayəndəsi, səfir Elman Abdullayevi ölkəmizin milli bəyanatını təqdim edib.

Bəyanatda diqqətə çatdırılıb ki, 2020-ci ildə Azərbaycan otuz ilə yaxın Ermənistanın işğalı altında qalmış ərazilərini azad etdi. Qeyd olunub ki, Ermənistan işğal etdiyi ərazilərdə, eləcə də öz ərazisində tarixən mövcud olmuş Azərbaycan xalqının mədəni irsini məhv və qarət etmək, mənimsəmək üçün sistemli siyasət yürüdüb. Ermənistan abidələri dağıtmaq, memarlıq xüsusiyyətlərini dəyişmək və "arxeoloji" qazıntılar aparmaqla Azərbaycan mənşəli olduğunu bildirən bütün əlamətləri ortadan qaldırmaq məqsədi güdüb.

Vurğulanıb ki, bu kimi fəaliyyəti ilə Ermənistan UNESCO-nun sənədləri də daxil olmaqla, "Silahlı münaqişələr zamanı mədəni mülkiyyətin mühafizəsi haqqında" 1954-cü il Haaqa Konvensiyasının və onun iki Protokolunun, habelə "Mədəni mülkiyyətin qanunsuz idxalı, ixracı və onun üzərində sahiblik hüququnun ötürülməsinin qadağan edilməsi vasitələri haqqında" Konvensiyanı, beynəlxalq humanitar hüququ kobud şəkildə pozub.

"Münaqişənin həlli Ermənistanla Azərbaycan arasındakı münasibətlərin normallaşması ilə regional əməkdaşlıq, inkişaf və firavanlıq üçün yeni perspektivlər açıb. İndi sülhün qorunması, reabilitasiya və yenidənqurma işləri, məcburi köçkünlərin geri qaytarılması mütləq prioritet olmalıdır. Azərbaycan hökuməti onilliklərdir davam etmiş işğalın nəticələrini aradan qaldırmaq, o cümlədən tarixi, mədəni və dini irs abidələrimizin bərpası məqsədilə praktiki addımlar atmağa başlayıb", – deyə E.Abdullayev vurğulayıb.

davamı səh. 3-də

## Bolqarıstan Milli Kitabxanasında Azərbaycan guşəsi

Oktyabrın 14-də paytaxt Sofiya şəhərində yerləşən Müqəddəs Kiril və Mefodi adına Bolqarıstan Milli Kitabxanasında Azərbaycana dair daimi guşənin açılış mərasimi keçirilib.

Mərasimdə Azərbaycan Milli Kitabxanasının direktoru, professor Kərim Tahirov, Bolqarıstan Milli Kitabxanasının direktoru Krasimira Aleksandrova, ölkəmizin Sofiyadakı səfiri Hüseyn Hüseynov və digər qonaqlar iştirak ediblər.

Tədbirdə çıxış edən Kərim Tahirov Bolqarıstan Milli Kitabxanasında olmasından məmnunluğunu ifadə edib. Bildirib ki, Azərbaycana dair daimi guşədə nümayiş olunmaq məqsədilə Milli Kitabxananın Ehtiyat mübadilə fondundan 100-dən çox kitab Bolqarıstan Milli Kitabxanasına göndərilib. Daimi guşədə Azərbaycanın zəngin tarixi və mədəniyyəti, müasir inkişafı, eləcə də Qarabağ haqqında kitablar yer alacaq.

davamı səh. 2-də

## Füzulinin işğaldan qurtuluşundan bir il ötür...

Ötən ilin payızında Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusu otuz ilə yaxın Ermənistanın işğalı altında qalan torpaqlarımızı azad etdi. Zəfərə aparan yolda – oktyabrın 17-də Füzuli şəhəri də azadlığına qovuşdu.



Vətənimizin hər guşəsi xalqımızın min illərdir yaşayıb-yaratdığı, onun tarixini, irsini təcəssüm etdirən abidələrlə zəngindir. İşğaldan azad olunmuş ərazilərdə 706-sı dövlət qeydiyyatında olmaqla 2600-dən çox tarixi abidə olub.

Hələ müharibənin getdiyi bir müddətdə ölkə başçısı tərəfindən imzalanan "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" 2020-ci il 29 oktyabr tarixli fərmana uyğun olaraq, azad edilmiş ərazilərdə Mədəniyyət Nazirliyinin nümayəndələri tərəfindən tarix və mədəniyyət obyektlərinin ilkin inventarlaşdırılması və mühafizəsi məqsədilə monitorinqlər başlandı.

davamı səh. 2-də

Moskvada Xalq rəssamı Fazil Nəcəfovun sərgisi açılıb



səh. 2

Azərbaycan Tayhu Dünya Mədəniyyət Forumunda fəxri qonaq statusunda iştirak edib

səh. 8



Xalq artistinin yubiley tamaşası

səh. 2

№78 (1855)
15 oktyabr 2021
www.medeniyyet.az

# Keçmiş məcburi köçkünləri doğma yerlərə ən qısa zamanda qaytarmaq istəyirik

## İtaliya şirkətləri azad edilmiş ərazilərdə yenidənqurma işlərində, o cümlədən muzeylərin yaradılmasında iştirak edir



*əvvəli səh. 1-də*

2020-ci ildə müharibənin başa çatmasından sonra Rusiyanın regionda sülhməramlı fəaliyyəti barədə suala cavabında dövlət başçısı bildirib ki, Rusiya sülhməramlıları Azərbaycanda, bizim Qarabağ bölgəsində yerləşib. Bu müddət ərzində bəzi xırda insidentlər istisna olmaqla vəziyyət sabitdir və ümumən biz bundan razıyıq: "Əlbəttə, həllini gözləyən müəyyən məsələlər qalmaqdadır. Xüsusən də, hazırda Rusiya sülhməramlılarının məsuliyyət zonasında olan ərazilərimizə səfər etmək üçün Azərbaycandan icazə almalı olan əcnəbilər məsələsi var. Qarabağa səfər edən dırnaqarası turistlərin sayı kəskin şəkildə azalsa da, bəzi əcnəbilər hələ də bizim ərazimizə, Rusiya sülhməramlılarının olduğu yerlərə qanunsuz daxil olurlar. Bu məsələ Rusiyanın səlahiyyətli orqanlarının, Müdafiə Nazirliyinin diqqətinə çatdırılıb ki, buna son qoyulsun. Bu və bəzi digər məsələlər öz həllini tapmalıdır. Ancaq hazırda biz onların fəaliyyətindən ümumilikdə razıyıq".

Azad edilmiş ərazilərdə yenidənqurma işlərində İtaliyanın iştirakı barədə suala cavab olaraq Prezident İlham Əliyev bildirib ki, İtaliya bu işlərə cəlb edilən ilk ölkələrdəndir: "İlk ölkə Türkiyədir, ikincisi isə İtaliyadır. Bu, təsadüfi deyil. Bu, bizim seçimimiz idi. Mən demişdim ki, biz Böyük Qayıdışla bağlı yenidənqurma layihələrinə yalnız dost ölkələrdən olan şirkətləri dəvət edəcəyik. Bir neçə italyan şirkəti artıq müxtəlif layihələrdə, o cümlədən Zəfər muzeylərinin, Memorial muzeylərin və İşğal muzeylərinin yaradılmasında iştirak edir. Artıq bir italyan şirkəti bir bölgənin enerji təminatı məsələsi ilə bağlı bizimlə müqavilə imzalayıb. Bundan əlavə, digər italyan şirkəti kənd təsərrüfatı məhsullarının istehsalına sərmayə yatırmağa başlayıb. Beləliklə, italyan şirkətlərinin Azərbaycanda fəaliyyəti alqışlanılır və bu yenidənqurma işlərində daha çox italyan şirkətləri olacaq".

Dövlət başçısı regionda Avropa İttifaqının mümkün rolu ilə bağlı fikirlərini də bölüşüb. "Hazırda bu məsələlər geniş şəkildə müzakirə edilir. Avropa İttifaqı Şurasının prezidenti cənab Şarl Mişelin bu yay Azərbaycana səfəri zamanı biz Azərbaycan-Avropa İttifaqı əməkdaşlığının geniş gündəliyi ilə bağlı ətraflı müzakirələr apardıq. Əlbəttə, əməkdaşlığımızın enerji kimi ənənəvi sahələri var ki, buradakı nəhəng layihələrin icrasını yalnız alqışlamaq olar.

Bu gün Avropa İttifaqı bizim nəqliyyat potensialımıza böyük maraq göstərir və bu sahədə fəal iştirak edir. Çünki biz Azərbaycanı Avrasiyanın müasir infrastruktura və qonşularla şaxələndirilmiş kommunikasiya marşrutlarına malik mühüm nəqliyyat mərkəzinə çeviririk. Avropa İttifaqı bu prosesin bir hissəsi olmağı planlaşdırır. Biz, həmçinin Cənubi Qafqazda postmüharibə dövrünün inkişafında da Avropa İttifaqının rolunu müzakirə edirik", – deyə İlham Əliyev bildirib.

### Heç bir ölkə Azərbaycanın qərarlarına təsir edə bilməz

Azərbaycan Prezidenti İranla münasibətlərdə son vaxtlar yaranmış vəziyyəti də şərh edib. İtalyan jurnalistin "Belə başa düşürəm ki, Sizin İsrail ilə yaxın olmağınızdan onlar o qədər də məmnun deyillər" sualına cavab olaraq dövlət başçısı bildirib ki, bu, bəhanədir. Baş verənlərin səbəbi bizim bəzi digər ölkələrlə olan münasibətimiz deyil, çünki xarici siyasətimiz çox açıqdır, şəffafdır, sabit və müstəqildir: "Heç bir digər ölkə Azərbaycanın qərarlarına təsir edə bilməz və ya buna çalışmalı deyil. Qərarlar burada – Bakıda Azərbaycanın milli maraqları əsasında mənim tərəfimdən verilir. Əgər kimsə süni bəhanədən istifadə etməyə çalışaraq Azərbaycanı digər ölkə ilə münasibətlərinin olmasında günahlandırıbsa, bu cəhdlər boş çıxıb. Bu, düzgün yol deyil və gətirib dalana çıxaracaq".

Dövlət başçısı qeyd edib ki, baş verənlərin səbəbi çox sadədir: "Azərbaycan öz sərhədlərinə hörmətlə yanaşılmasını istəyir. Qarabağın azad edilməsindən sonra biz Ermənistanla öz sərhədimizə çıxdıq. Biz öz sərhədimizə gəlib, orada yerləşdik. Ermənistanın bəzi şəhərləri arasındakı yol Azərbaycanın ərazisindən keçir. Bu yoldan Qarabağa, bizim ərazimizə malların qeyri-qanuni daşınmasında istifadə olunduğunu görməyə başladıq. Bu, qəbuledilməzdir. Biz öz sərhədlərimizə hörmətlə yanaşılmasını tələb edirik. Biz hər hansı digər ölkənin sərhədini qeyri-qanuni olaraq pozmuruq. Beləliklə, mesajımız çox sadə idi – dayandırın bunu! Biz ictimaiyyətə açıqlamadan çox dostcasına bildirdik ki, bunu dayandırsınlar. Çünki bu, düzgün deyil. Biz həmin yollara nəzarət edirik və görürük ki, aldatmağın, "bunun baş vermədiyini" söyləməyin yeri yoxdur. Əfsuslar olsun ki, bu xəbərdarlığa adekvat cavab verilmədi. Sonra biz ikinci addımı atmalı olduq. Biz diplomatik nota hazırladıq, səfiri dəvət etdik və bunu ictimaiyyətə açıqladıq ki, bunu dayandıraq. Amma, əslində, bu, daha pis forma aldı, İrandan Qarabağa gedən yük maşınlarının sayı artdı. Bu addımı biz zərbə, bilərəkdən hörmətsizlik kimi saydıq. Sonra biz tamamilə qanuni hesab edilən başqa tədbirləri gördük və bu, qonşu ölkədə böyük qarışıqlığa, lazımsız hərəkətlərə səbəb oldu. Yersiz bəyanatlar verildi, hədələr edildi, sərhədimizə yaxın hərbi təlimlər keçirildi. Müəmmalı idi ki, ilk dəfə hərbi təlimlərin planlı tədbir olduğu deyildi. Sonra isə deyildi ki, bizə nəyi isə nümayiş etdirmək üçün edildi".

Prezident vurğulayıb ki, heç kəs öz iradəsini bizim üzərimizə qoya bilməz. Biz bütün ölkələrlə və ilk növbədə, qonşularımızla dost münasibətlərə malik olmaq istəyirik: "Səkkiz il ərzində işlədiyimiz əvvəlki İran hökuməti ilə biz münasibətlərimizi ən yüksək mümkün səviyyəyə qaldıra bildik. Mənim həmkarım cənab Həsən Ruhani ilə ondan artıq görüşüm olub. Bütün həmin görüşlər məhsuldar olub. Biz enerji, nəqliyyat, mədəni inkişaf, təhlükəsizlik sahələrində bir çox sazişləri imzalamışıq və icra etmişik. Münasibətlərimiz, əslində, dostluq və yaxşı qonşuluq rəmzinə çevrilmişdir. İranın yeni hökuməti, yeni Prezidenti seçiləndə biz nə etdik? Biz onun inauqurasiyasına parlament sədrinin və Baş nazirin müavininin rəhbərliyi ilə böyük nümayəndə heyətini göndərdik. Onlar mənim dostluq mesajımı birbaşa İran Prezidentinə çatdırdılar. Eyni zamanda, digər çatdırılan mesaj və mən bunu xüsusi olaraq əvvəlcə bildirdim, belə idi: "Xahiş edirik Qarabağda İran biznesmenləri tərəfindən aparılan qeyri-qanuni biznes fəaliyyətinə diqqət yetirin". Biz İran hökumətini ittiham etmək mövqeyində deyildik. Biz anladıq ki, bunu bəzi özəl şirkətlər edir. Lakin biz bunun dayandırılmasını xahiş etdik. Cavab olaraq nə baş verdiyini hər kəs görür. Nəticədə nəyə nail olduq? Bir daha söyləyim ki, heç bir yaxşı şey baş vermədi. Buna görə biz, ilk növbədə, İsrailin azad olunmuş torpaqlara gətirilməsi ilə bağlı Azərbaycana yönələn bütün ittihamları rədd edirik. Bu, tamamilə cəfəngiyyatdır. Bu, sadəcə, Azərbaycanı qaralamaq məqsədilə daxili auditoriyaya yönəlmiş bəhanədir. Hər kəs gedib görə bilər ki, orada heç həyat yoxdur. Hər bir şey dağıdılıb. İkincisi isə biz digərlərinə etdiyimiz hörmətin özümüzə də olmasını tələb edirik".

# Çexiya ilə mədəni əməkdaşlıq müzakirə olunub

Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov oktyabrın 14-də Çex Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Milan Ekert ilə görüşüb.



Qonağı səmimi salamlayan Anar Kərimov Azərbaycan və Çexiya arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğunu, əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən mədəniyyət sahəsində daha da inkişaf etdirilməsi və genişləndirilməsi üçün əlverişli imkanların mövcudluğunu qeyd edib. Nazir əməkdaşlıqda prioritet məsələ kimi mədəni irsin qorunması, kreativ industriyanın təkmilləşdirilməsi, film və musiqi sahəsinin inkişafının zəruriliyini vurğulayıb. Anar Kərimov həmçinin işğaldan azad olunmuş torpaqlarımızda tarixi abidələrimizin bərpa prosesində çexiyalı mütəxəssislərin təcrübəsindən faydalanmağın əhəmiyyətini diqqətə çatdırıb.

Mədəniyyət Nazirliyinin "Mədəniyyət naminə sülh" (Peace for culture) beynəlxalq platforması haqqında da diplomata məlumat verən nazir Çexiyanı bu önəmli layihəyə qoşulmağa dəvət edib.

Qəbula görə minnətdarlığını bildirən səfir Milan Ekert Azərbaycanın caz musiqi ənənələrinin zəngin tarixindən söz açıb. Qonaq "Nizami Gəncəvi İli" çərçivəsində dahi şairin əsərlərinin çex dilinə tərcüməsinin vacibliyini dilə gətirib. O, həmçinin Azərbaycanda tarixi-mədəni irsin bərpası ilə bağlı əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətini vurğulayıb. İki ölkə arasında əlaqələrin inkişaf perspektivlərindən danışan diplomat bu xüsusda uğurlu nəticələrin əldə olunacağına inamını dilə gətirib.

Görüş tərəfləri maraqlandıran digər məsələlərin müzakirəsi ilə davam edib.

# Xalq artistinin yubiley tamaşası

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı pandemiyanın doğurduğu ilyarımdan çox fasilədən sonra pərdələrini açır. Teatr oktyabrın 15-də yeni mövsümə ənənəvi olaraq "Qarabağnamə" tamaşası ilə başlayır. Xalq yazıçısı İlyas Əfəndiyevin "Hökmdar və qızı" pyesi əsasında səhnələşdirilən tamaşa Qarabağda tarixi Zəfərdən sonra bir başqa ovqatla baxılacaq.

Oktyabrın 16-da isə Akademik Milli Dram Teatrının yubiley tamaşası var. Cəlil Məmmədquluzadənin "Ölülər" əsərinin növbəti tamaşası baş rolun ifaçısı – Xalq artisti Nurəddin Mehdixanlının 65 illik yubileyinə həsr ediləcək. Tamaşanın quruluş müəllifi Xalq artisti Azər Paşa Nemətovdur.

Görkəmli bəstəkar Qara Qarayevin 1966-cı ildə "Ölülər" tamaşası (rej. Tofiq Kazımov) üçün yazdığı musiqi yeni versiyada təqdim olunacaq. Mədəniyyət Nazirliyinin sifarişi ilə hazırlanan səhnə əsərinin elmi məsləhətçisi akademik İsa Həbibbəylidir.

Şeyx Nəsrullahı Xalq artisti Nurəddin Mehdixanlı, Kefli İsgəndəri Əməkdar artist Anar Heybətov oynayacaq. Digər rolları Xalq artistləri Laləzar Mustafayeva, Rafiq Əzimov, Hacı İsmayılov, Əli Nur, Sabir Məmmədov, Əməkdar artistlər Aslan Şirin, Elşən Rüstəmov, Elxan Quliyev, Məzahir Cəlilov, Kazım Həsənquliyev, Mətləb Abdullayev, Mirzə Ağabəyli və başqaları canlandıracaq.

# Moskvada Xalq rəssamı Fazil Nəcəfovun sərgisi açılıb

Moskvadakı Dövlət Şərq Muzeyində Azərbaycan heykəltəraşlığında avanqardizm istiqamətinin banisi, Xalq rəssamı Fazil Nəcəfovun albomunun təqdimatı və sərgisinin açılışı olub.

Sərginin təşkilatçıları Heydər Əliyev Fondu, RF Mədəniyyət Nazirliyi, Dövlət Şərq Muzeyi və Mərcani Fondudur. Sərgidə sənətkarın yaradıcılığının müxtəlif dövrlərinə aid qrafika əsərləri və bürüncdən hazırlanmış heykəllər nümayiş etdirilir.

Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu sərginin açılış mərasimində çıxış edib. Fazil Nəcəfovu "canlı klassik" adlandıran səfir deyib: "Fazil müəllim 1935-ci ildə anadan olub. Mən ona uzun ömür və yaradıcılıq uğurları arzu edirəm. Rəssam və heykəltəraş haqqında danışmaq asan məsələ deyil. Hər kəs onun işlərinə tamaşa etsə və öz fikrini hasil etsə, daha yaxşı olar. Mən bir məqamı xüsusi vurğulamaq istərdim ki, sovet dövründə incəsənətdə avanqardizm üslubunda işləmək asan məsələ deyildi. Lakin Fazil Nəcəfov davam gətirdi və bu gün bizim canlı klassikimizdir".

Şərq Muzeyinin direktoru Aleksandr Sedov deyib: "Ekspozisiyaya Fazil Nəcəfovun son illərdə yaratdığı əsərlərlə bərabər daha erkən dövrə aid işləri də daxildir. Lakin əsas hadisə "Fazil Nəcəfov. Heykəltəraşlıq. Qrafika" adlı albomun təqdimatıdır. Albom bizim çoxdankı tərəfdaşımız Heydər Əliyev Fondunun dəstəyi ilə nəşr edilib. Bu sərgi cari ildə Heydər Əliyev Fondu ilə birgə təşkil olunmuş ikinci sərgimizdir. Birinci sərgi Nizami Gəncəviyə həsr edilmişdi. Biz əməkdaşlığı yüksək qiymətləndiririk. Ümidvarıq ki, bu əməkdaşlıq davam edəcək və öz səmərəsini göstərəcək".



A.Sedov 1918-ci ildə yaradılmış Dövlət Şərq Muzeyinin tarixi barədə də məlumat verib. O deyib: "Bizim muzeyimizin, necə deyərlər, "göbəyi Azərbaycan ilə kəsilib". Muzeyin bir nömrəli eksponatı 1918-ci ildə buraya daxil olmuş Qarabağ xalçasıdır. İnventar nömrəsi 1 olan xalça Tverskaya küçəsindəki xalça mağazasından gətirilmişdi. 1918-ci ildə mağaza milliləşdiriləndə xalçanı bizim muzeyə veriblər".

Sərginin kuratoru və "Fazil Nəcəfov. Heykəltəraşlıq. Qrafika" albomunun müəlliflərindən biri olan Mariya Filatova albom üzərində işin dörd il davam etdiyini deyib: "Bu albomun üç müəllifi var. Əsas müəllif qeyri-adi ədəbi istedada malik olan Fazil Nəcəfov özüdür. O yazmır, amma o qədər maraqlı və cəlbedici söhbətlər edir ki, hər şey aşkar təsəvvür edilir. Mən də öz növbəmdə onun duyğularını, intonasiyalarını oxucuya çatdırmağa çalışmışam. Daha bir müəllif – jurnalist Nonna Müzəffərovadır. Albom Heydər Əliyev Fondunun və Mərcani Fondunun dəstəyi ilə hazırlanıb".

Moskvada Azərbaycan təsviri sənətində "Abşeron məktəbi"nin görkəmli nümayəndələrindən olan Fazil Nəcəfovun yaradıcılığına həsr edilmiş sərgi oktyabrın 20-dək davam edəcək.

# Bolqarıstan Milli Kitabxanasında Azərbaycan guşəsi

*əvvəli səh. 1-də*

Direktor qeyd edib ki, Azərbaycan Milli Kitabxanası xarici ölkələrlə beynəlxalq kitab mübadiləsi işinə xüsusi əhəmiyyət verir. Gələcəkdə Bolqarıstan Milli Kitabxanasına təqdim olunan kitabların sayının artırılması nəzərdə tutulur.

Azərbaycan səfiri Hüseyn Hüseynov Bolqarıstan Milli Kitabxanasında ölkəmizə dair daimi guşənin yaradılmasını təqdirəlayiq addım kimi qiymətləndirib, hər iki kitabxananın rəhbərliyinə öz təşəkkürünü bildirib.

Açılış tədbirində daha sonra M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası ilə Müqəddəs Kiril və Mefodi adına Bolqarıstan Milli Kitabxanası arasında qarşılıqlı əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb. Sənədi Kərim Tahirov və Krasimira Aleksandrova imzalayıblar.

Sənəddə kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması, kitabxana və kitab nəşri sahəsində elmi tədqiqatlar, nadir kitabların mühafizəsi, bərpa və konservasiyası texnologiyaları, kitabxana arxivlərinin keyfiyyətinin təkmilləşdirilməsi məqsədilə beynəlxalq kitab mübadiləsinin inkişafı, sərgilərin təşkili və s. sahələrdə əməkdaşlıq məsələləri əksini tapıb.

Direktor Kərim Tahirov Azərbaycan Milli Kitabxanasının "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından "Nizami Gəncəvi. Biblioqrafiya" kitabını və "Sözləri Nizaminindir" CD albomunu Bolqarıstan Milli Kitabxanasının direktoru Krasimira Aleksandrovaya hədiyyə edib.

Mərasimdən sonra Kərim Tahirov Bolqarıstan Milli Kitabxanası ilə yaxından tanış olub. Direktora kitabxananın fəaliyyəti haqqında ətraflı məlumat verilib.



# Füzulinin işğaldan qurtuluşundan bir il ötür...

## Rayonda dövlət mühafizəsinə götürülmüş 63 tarix-mədəniyyət abidəsi var

*əvvəli səh. 1-də*

İndiyədək dövlət qeydiyyatında olan 381 tarix-mədəniyyət abidəsinin monitorinqi aparılıb. Bundan əlavə, həmin ərazilərdə yerləşən dövlət qeydiyyatında olmayan tarixi, memarlıq, arxeoloji əlamət daşıyan 141 obyekt aşkar edilib.

Təəssüf ki, işğal müddətində bu torpaqlardakı mədəni irsimiz vandalizmə məruz qalıb, dağıdılıb, talan edilib. Erməni silahlı qüvvələri tərəfindən dağıdılan daşınmaz mədəni irs nümunələri sırasında məscidlər, türbələr və digər inanc yerləri daha çoxdur. Dini məkanlar dağıdılmaqla yanaşı, bir çox hallarda təyinatına uyğun olmayan şəkildə istifadə olunaraq xalqımızın milli-mənəvi dəyərləri təhqir edilib.

Füzuli rayonunda dövlət mühafizəsinə götürülmüş 63 tarix-mədəniyyət abidəsi var ki, onlardan da 60-ı işğaldan azad edilmiş ərazilərdə yerləşir. Digər işğaldan azad olunmuş ərazilərdə olduğu kimi, Füzuli rayonunda da tarix və mədəniyyət abidələrinin əksəriyyəti yer üzündən silinib. Rayonda Hacı Ələkbər məscidi, Dədəli, Merdinli, Gecəgözlü, Yuxarı Veysəlli kənd məscidləri, Horadiz kəndindəki iki məscid, eləcə də digər kəndlərdə yerləşən məscidlər, qəbiristanlıqlar, tarixi abidələr Ermənistanın barbar siyasətinə məruz qalıb. Həmçinin "Araz" qəzetinin redaksiyası, Mədəniyyət evi, Məhəmməd Füzulinin heykəli dağıdılıb, 1941-1945-ci illər müharibəsində həlak olmuş həmvətənlərimizin xatirə abidəsi də tamamilə məhv edilib.

Dövlətimiz bütün tarixi abidələrin, mədəni irs nümunələrinin bərpa olunaraq yenidən öz həqiqi sahiblərinə qaytarılması əzmindədir. Bərpa-konservasiya işlərinin müasir şəhərsalma prosesləri çərçivəsində nəzərə alınması əsas prioritetlərdən biridir.

**Fariz HÜSEYNLİ**

# Muzeylərdə kolleksiyaların toplanması: dövrün çağırışları və sosial məsuliyyət





*əvvəli səh. 1-də*

Direktor qeyd edib ki, intensiv qloballaşma prosesləri, genişlənməkdə olan siyasi-iqtisadi və mədəni inteqrasiya ilə səciyyələnən müasir dünyamız xalqların milli-mədəni özünəməxsusluğunu, unikal tarixi ənənələrinin qorunub saxlanılması və inkişaf etdirilməsi problemini daha da aktuallaşdırır. Bu proseslərin nəticəsi olaraq cəmiyyətin mədəni sərvətlərini qoruyub saxlayan muzeylərin həyatında, bütün fəaliyyət istiqamətlərində, hətta onun ən konservativ sahəsi olan kolleksiyaların toplanması işində də dəyişikliklər baş verir.

Daha sonra çıxış edən mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyeva bildirib ki, belə toplantılar beynəlxalq təcrübənin bölüşdürülməsinə, öyrənilməsinə yaxşı fürsət yaradır: "Muzeylər öz kolleksiyaları haqqında məlumatları nəsildən-nəslə ötürür. Texnologiya inkişaf etdikcə muzeylərin fəaliyyət forması da dəyişib. İndi hər bir muzeyi onlayn şəkildə ziyarət etmək mümkündür. Hazırda muzeylər tədqiqat aparmaq üçün bir platformaya çevrilib. Onlar həmçinin maarifləndirmə missiyasını da həyata keçirirlər. Muzeylər başqa xalqların tarixinə nəzər salmaq baxımından da əhəmiyyətlidir".

Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbayan Ordusunun işğaldan azad etdiyi torpaqlarmızdakı dağıdılmış muzeylər barədə məlumat verən nazir müavini bildirib ki, bu ərazilərdə uzun illər düşmən vandalizminin qurbanına çevrilən muzeylərin müasir tələblərə uyğun yenidən qurulmasına başlanılıb. Artıq Şuşa şəhərində Bülbülün Ev-Muzeyi və Molla Pənah Vaqifin məqbərəsi tam restavrasiya olunub.

İşğaldan azad olunmuş ərazilərdə açıq havada Zəfər muzeylərinin də tikiləcəyini diqqətə çatdıran Sevda Məmmədəliyeva bildirib ki, bu konsepsiyanın hazırlanması ilə əlaqədar xarici mütəxəssislərlə danışıqlar aparılır. Nazir müavini beynəlxalq təşkilatlarla əməkdaşlıq aparmağın yerli muzeylərin inkişafına müsbət təsir göstərəcəyinə ümidvar olduğunu deyib.

İCOM-İNTERCOM təşkilatının rəhbəri Qoranka Horjan çıxışı zamanı deyib: "Heç nə birgə əməkdaşlıq qədər muzeylərin inkişafına təsir edə bilməz. Bizim qarşılaşdığımız bir neçə problem bu gün müzakirə ediləcək. Biz cari vəziyyəti əks etdirən məsələləri həll etmək üçün xüsusi mövzu seçmişik. Mütəxəssislər çıxışlarında muzeylərin mövcud vəziyyətə uyğunlaşması üçün nə etməli olduğunu bildirəcəklər".

COVİD-19-un dünyada yeni yanaşmalara gətirib çıxardığını söyləyən İCOM-İCME təşkilatının rəhbəri Ralf Ceplak Mencin bildirib ki, hazırda muzeylər öz auditoriyası ilə əlaqə yaratmağa çalışır. İndi bir çox ölkələrdə onlar öz qapılarını yenidən ziyarətçilərin üzünə açıb.

Konfransda daha sonra "Muzeylərin dekolonizasiyası: mədəni dəyərlərin tarixi vətənlərinə qaytarılması və müstəmləkəçilik dövrünün neqativ nəticələrinin aradan qaldırılması", "Muzeylər və etnoturizm" və "Müasir dövrdə muzey idarəçiliyi" mövzuları üzrə məruzələr dinlənilib.

Konfrans çərçivəsində maraqlı mədəni proqram da nəzərdə tutulub. Qonaqlar Azərbaycan Milli Xalça Muzeyi ilə yanaşı, "İçərişəhər" Muzey Mərkəzi, Heydər Əliyev Mərkəzi, Azərbaycan Milli İncəsənət Muzeyi və Milli Azərbaycan Tarixi Muzeyini ziyarət edəcəklər.

## "Şuşada Milli Xalça Muzeyi səviyyəsində muzey yaradılacaq"

"Biz İCOM-un yerli komitəsi olaraq Qarabağ muzeyləri ilə bağlı lazımi tədbirləri həyata keçiririk. Bu yaxınlarda Mədəniyyət Nazirliyinə belə bir təkliflə müraciət etmişik ki, sözügedən muzeylərin direktorları üçün xüsusi məktublar hazırlansın, onların arxivlərdə işləməsi üçün lazımi şərait yaradılsın. Problem ondadır ki, muzeylərin inventar kitabları işğal zamanı çıxarılmayıb. Bu, işimizi xeyli çətinləşdirir".

Bunu jurnalistlərə açıqlamasında Milli Xalça Muzeyinin direktoru, İCOM Azərbaycan Milli Komitəsinin sədri Şirin Məlikova deyib.

Onun sözlərinə görə, hazırda foto və videomaterialları yığır, həmin muzeylərin binaları və işğaldan öncəki ekspozisiyası haqqında məlumatlar toplayırlar. Məsələ ilə bağlı həm İCOM-a, həm də UNESCO-ya müraciətlər göndərilib: "Çalışırıq dünya təcrübəsindən yararlanaq, öyrənək ki, digər ölkələrdə belə situasiyalarda hansı addımlar atılır, hansı sənədlər hazırlanmalıdır ki, talan olunan maddi mədəniyyətimizlə bağlı məsələni beynəlxalq səviyyədə də qaldıraq".

Bu il avqustun 30-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Şuşada Milli Xalça Muzeyi ekspozisiyasının açılışının olduğunu deyən Ş.Məlikova bildirib ki, bu, müvəqqəti ekspozisiyadır. Gələcəkdə Şuşada Azərbaycan Milli Xalça Muzeyi səviyyəsində bir muzey təşkil olunacaq: "İşğaldan öncə nümayiş olunan eksponatları hazırda orda sərgiləyirik. Eyni zamanda bizim muzeyimizə Mədəniyyət Nazirliyi tərəfindən hədiyyə olunan çox qiymətli, XVIII əsrə aid Çələbi xalçası da orada sərgilənir. Şuşaya təşkil olunan səfərlərin mədəni proqramına bizim sərgimiz də daxildir".

# "Azad edilmiş ərazilərdə bütün abidələr qorunacaq, bərpa ediləcək"

## UNESCO-nun İcraiyyə Şurasında Azərbaycanın milli bəyanatı təqdim edilib



*əvvəli səh. 1-də*

Daimi nümayəndə əlavə edib ki, münaqişə bitdikdən sonra mədəni irsə çıxış bərpa olunub. Bu da Azərbaycanın mədəni irsinə vurulan ziyanı qiymətləndirməyə imkan yaradıb. Bu amil UNESCO-nun fəal rolunu tələb edir.

"Bununla əlaqədar olaraq, məlumat vermək istəyirəm ki, Azərbaycan Respublikasının münaqişədən zərər çəkmiş ərazilərinə müstəqil UNESCO texniki missiyasının göndərilməsi ilə bağlı danışıqlar davam edir. Əslində, Azərbaycan Hökuməti belə bir missiyanın göndərilməsinin zəruriliyini 30 illik işğal dövründə çoxsaylı platformalarda UNESCO-nun diqqətinə çatdırdı. Lakin bu missiyaya hər dəfə Ermənistan tərəfindən maneə yaradılması və qarşısının alınması 2005-ci ilin hesabatında aydın göstərilib. Azərbaycan UNESCO ilə əməkdaşlığa böyük əhəmiyyət verir və konstruktiv dialoqa hər zaman açıqdır. İnanırıq ki, çoxdan gözlənilən bu missiyanın dərhal həyata keçirilməsi işğal zamanı zədələnmiş, talan edilmiş və ya dəyişdirilmiş mədəni irsin bərpasına və yenidənqurulmasına mühüm töhfə olacaq", – deyə E.Abdullayev qeyd edib.

İşğaldan azad olunmuş ərazilərdə həyatın yenidən canlandığını deyən daimi nümayəndə diqqətə çatdırıb ki, 30 ildən sonra ilk dəfə Azərbaycanın mədəniyyət paytaxtı Şuşada musiqi festivalı, o cümlədən "Azərbaycan musiqisində multikulturalizm" devizi altında ölkədə yaşayan etnik azlıqların musiqi yaradıcılığını əks etdirən tədbir keçirildi.

Vurğulanıb ki, 2021-ci ildə böyük Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illik yubileyi qeyd edilir. Prezidentin sərəncamı ilə 2021-ci il Azərbaycanda "Nizami Gəncəvi İli" elan olunub. Azərbaycanın təşəbbüsü ilə sentyabrın 24-də UNESCO-nun görkəmli nümayəndələrinin fəal iştirak etdiyi "Nizami fəlsəfəsi prizmasından bərabər təhsil və gender bərabərliyi" adlı veb-seminar təşkil edilib. Oktyabrın 4-də UNESCO-nun mənzil-qərargahında Nizami Gəncəviyə həsr olunmuş tədbir keçirildiyini qeyd edən E.Abdullayev tədbirə dəstəyinə görə Baş direktora və üzv dövlətlərə təşəkkürünü bildirib.

**Bölgələrdən xəbərlər**

## Festival, ekskursiya, film nümayişi...

Ağdaş Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə keçirilən "Zəfər" musiqi festivalının I turu Şəmkir Regional Mədəniyyət İdarəsi Şəmkir şəhər Heydər Əliyev Mərkəzində gerçəkləşib. Tədbirdə regional idarənin tabeliyində fəaliyyət göstərən uşaq musiqi və incəsənət məktəblərinin şagirdləri iştirak ediblər.



Ağcabədi Regional Mədəniyyət İdarəsi Ağdam rayon Heydər Əliyev Mərkəzinə rayonun Xındırıstan və Çəmənli kənd tam orta məktəbləri şagirdlərinin ekskursiyası təşkil edilib. Ekskursiya zamanı mərkəzin bələdçisi Yunis İbrahimov şagirdləri ulu öndər Heydər Əliyevin sovet və müstəqillik dövrlərində Ağdam rayonunun kənd və qəsəbələrinə səfərləri, dünya siyasətçiləri ilə keçirdiyi görüşləri əks etdirən fotoşəkillərlə tanış edib.

Gəncə Regional Mədəniyyət İdarəsinin rəisi Vasif Cənnətov teatrşünas, tənqidçi Anar Burcəliyevi regional idarənin tədbirlərində fəal iştirak etdiyinə görə fəxri fərmanla təltif edib. Gəncə şəhəri F.Əmirov adına 1 nömrəli Uşaq musiqi məktəbində Nizami Gəncəvinin 880 illik yubileyinə həsr olunmuş "Merac" adlanan "Yeddi rəng" fəlsəfəsi" mövzusunda tədbir keçirilib. Goranboy rayon Mərkəzi Kitabxanası Uşaq şöbəsinin işçiləri "Sirli-sehrli söz boğçamız" adlı "nağıl saatı" keçiriblər.



Sabirabad Regional Mədəniyyət İdarəsi Sabirabad rayon Heydər Əliyev Mərkəzində gənclər üçün "Mənim dünyam" filmi nümayiş etdirilib.

Şəki Regional Mədəniyyət İdarəsi Zaqatala rayon Mərkəzi Kitabxanasının Kəpənəkçi kənd filialının təşkilatçılığı ilə kəndin körpələr evində "Bizim nağıl dünyamız" adlı "nağıl saatı" keçirilib.



Şəmkir Regional Mədəniyyət İdarəsinin rəisi Zöhrab Adıgözəlov və Şəmkir rayon MKS-nin kollektivi ötən ilin oktyabrında Ermənistanın Gəncəyə raket zərbəsi zamanı həlak olmuş Anar və Nurçin Əliyevlərin məzarlarını ziyarət edib. Regional idarənin Göygöl rayonu üzrə nümayəndəliyi Gəncədə düşmən raketi atılmış ərazini ziyarət edib, tər qərənfillər düzüblər.

## Tarix yazan qəhrəmanlar unudulmur

Sumqayıt Regional Mədəniyyət İdarəsinin əməkdaşları və tabe müəssisələrin kollektivləri Vətən müharibəsi qazilərini və şəhidlərimizin ailələrini ziyarət ediblər.

Kürdəmir Regional Mədəniyyət İdarəsinin əhatə etdiyi İmişli rayon Mərkəzi Kitabxanasında "Zirvədən boylananlar" adı tədbir keçirilib. Tədbirdə şəhid ailələri, qazilər və rayonda yerləşən bir sıra mədəniyyət müəssisələrinin rəhbərləri iştirak ediblər.

Masallı Regional Mədəniyyət İdarəsi Masallı rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə şəhər 3 saylı tam orta məktəbdə "Vətənpərvər Azərbaycan gəncliyi" mövzusunda tədbir keçirilib.

Biləsuvar Regional Mədəniyyət İdarəsi Salyan rayon MKS-nin Sarvan və Stansiya Dayıkənd kənd kitabxana filiallarının əməkdaşları Vətən müharibəsi şəhidi Alməmməd Babayevin ailəsini ziyarət ediblər.

Ağdaş Regional Mədəniyyət İdarəsi Ucar rayon Heydər Əliyev Mərkəzində "Tarixi Qələbə" adlı sərgi təşkil olunub. Zərdab rayon Həsən bəy Zərdabi Muzeyində "Qarabağın Zəfər tarixi" adlı tədbir təşkil olunub. Göyçay Rayon Tarix-Diyarşünaslıq Muzeyində Vətən müharibəsi qaziləri Turan İslamov, Nemət Həşimov və Mehman Əsgərovla görüş olub. Göyçay rayon Heydər Əliyev Mərkəzində Vətən müharibəsi qaziləri Fuad Məmmədov və Ramin Seyidovla görüş keçirilib.

Sabirabad Regional Mədəniyyət İdarəsi Hacıqabul Rayon Tarix-Diyarşünaslıq Muzeyi və rayon 2 saylı tam orta məktəbin birgə təşkilatçılığı ilə məktəblilər arasında "Biz onlara borcluyuq" adlı tədbir keçirilib.

İsmayıllı Regional Mədəniyyət İdarəsinin rəisi Elçin Nəcəfov, mədəniyyət işçiləri Vətən müharibəsi şəhidləri Aqil Mirzəliyevin və Həsən Abdullayevin ailələrini ziyarət ediblər. Şamaxı Dövlət Rəsm Qalereyasında Vətən müharibəsinə həsr edilən sərgi təşkil olunub.



Gəncə Regional Mədəniyyət İdarəsi Goranboy rayon Mərkəzi Kitabxanasının işçiləri "Qəhrəmanlar unudulmur" başlıqlı sərgi təşkil ediblər. Sərgidə şəhidlərimizin və Milli Qəhrəmanlarımızın döyüş yolundan bəhs edən kitablar nümayiş olunub. Kəlbəcər rayon Uşaq incəsənət məktəbində Vətən müharibəsindəki Qələbəmizə həsr edilmiş, uşaqların əl işlərində ibarət "Zəfərə aparan yol" adlı sərgi keçirilib. Goranboy Dövlət Rəsm Qalereyasında Vətən müharibəsinin birinci ildönümü ilə bağlı hərbi-vətənpərvərlik mövzusunda rəsm sərgisi təşkil edilib. Xocalı rayon MKS tərəfindən "Biz sizə borcluyuq" başlıqlı dəyirmi masa keçirilib.



Şəki Regional Mədəniyyət İdarəsi M.F.Axundzadə adına Mədəniyyət Mərkəzinin tabeliyində fəaliyyət göstərən Şəki kənd Folklor evində "Şəhidlər ölməz, Vətən bölünməz!" mövzusunda tədbir keçirilib. Folklor evinin bədii özfəaliyyət kollektivi üzvlərinin ifasında şəhidlər haqqında şeirlər səsləndirilib. Şəkinin Bideyiz kənd Folklor evində Vətən müharibəsinə həsr olunmuş "Zəfər yolumuz" adlı ədəbi-bədii axşam keçirilib. Balakən şəhər 2 saylı Diyarşünaslıq klubunda "Tarix yazan qəhrəmanlar" adlı görüş keçirilib.

Ağstafa Regional Mədəniyyət İdarəsi Ağstafa rayon Heydər Əliyev Mərkəzinin əməkdaşları Ağstafa şəhər 1 saylı orta məktəbin V sinif şagirdlərinə "Tarixi Zəfər və böyük qayıdış" başlıqlı mühazirə söyləyiblər. Ağstafa şəhər 2 saylı uşaq bağçasında "Xarıbülbül – 44" başlıqlı sərgi təşkil edilib. Sərgidə Ağstafa Dövlət Rəsm Qalereyasında fəaliyyət göstərən rəsm dərnəyi şagirdlərinin əl işləri nümayiş olunub. Ağstafa rayon MKS-nin Mərkəzi Kitabxanası və Yuxarı Göycəli kənd mədəniyyət müəssisələri "Kəndimizin əbədiyaşar şəhidləri" adlı görüş keçiriblər. Tovuz Dövlət Rəsm Qalereyası və Tovuz rayon MKS-nin əməkdaşları Vətən müharibəsi şəhidi Amil Rüstəmovun ailəsini ziyarət ediblər. Qazax rayon MKS-nin E.Hüseynov adına Mərkəzi Kitabxanasının əməkdaşları Vətən Müharibəsi Qəhrəmanı, kapitan Nicat Bədəlovla görüşüblər.

## Xalq teatrının "Yalnız irəli!" kompozisiyası

Masallı Regional Mədəniyyət İdarəsi Masallı rayon Nizami Gəncəvi adına Mədəniyyət Mərkəzinin nəzdində fəaliyyət göstərən Xalq teatrında Vətən müharibəsi şəhidlərinin xatirəsinə həsr edilmiş "Yalnız irəli!" adlı ədəbi-bədii kompozisiya nümayiş olunub. Yazıçı-publisist Akif Ağayevin hazırladığı kompozisiyanı Masallı Xalq teatrı və Masallı Dövlət Regional Kollecinin müəllim və tələbə kollektivi təqdim edib.

Sosial şəbəkələr vasitəsilə yayımlanan kompozisiya şəhidlərimizin rəşadətindən bəhs edən monoloqlar üzərində qurulub, vətənsevərlik ruhlu şeir parçaları səsləndirilib. Eyni zamanda rayonun Viləş kəndindən iki şəhidin anası Ziba Əsgərlinin obrazı canlandırılıb.




Nümayişdən sonra Masallı Regional Mədəniyyət İdarəsinin rəisi Bəxtiyar Qılıncov şəhidlərin valideynləri ilə görüşüb, onların qayğıları ilə maraqlanıb.

## Füzulinin azad olunmasının ildönümü ilə bağlı sərgi

Kürdəmir Regional Mədəniyyət İdarəsi Füzuli Rayon Tarix-Diyarşünaslıq Muzeyində 17 oktyabr – Füzuli şəhərinin işğaldan azad edilməsinin ildönümü ilə əlaqədar sərgi açılıb. Tədbirdə rayon İcra Hakimiyyətinin şöbə müdiri Gülbahar Eyvazova, regional idarənin rəisi Faiq Xudanlı, şəhid ailələri və mədəniyyət işçiləri iştirak ediblər.

Sərgidə Vətən müharibəsində torpaqlarımızın azadlığı uğrunda canlarını fəda edən Füzuli rayon şəhidlərinin geyimləri, sənədləri, fəxri fərmanları, fotoşəkil və digər əşyaları, eləcə də rayonun 78 şəhidi haqqında məlumatlar nümayiş etdirilib. Həmçinin şəhidlərimizin həyat yolu və qəhrəmanlıqlarından bəhs edən kitab və məqalələrin yer aldığı mətbu nəşrlər, eləcə də müharibə zamanı rayon ərazisinə atılmış mərmilərin qalıqları, Füzuli, Zəngilan, Xocavənd və Şuşadan tapılaraq Füzuli Rayon Tarix-Diyarşünaslıq Muzeyinə təqdim olunan əşyalar sərgilənib.



**Hazırladı: NURƏDDİN**

# Mədəniyyət naziri GUAM-ın Baş katibi ilə görüşüb

Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov oktyabrın 14-də Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilat – GUAM-ın Baş katibi Altay Əfəndiyevlə görüşüb.



Görüş zamanı regional təşkilat olan GUAM (Gürcüstan, Ukrayna, Azərbaycan, Moldova) çərçivəsində əməkdaşlığın əsas istiqamətləri və perspektivləri barədə müzakirələr aparılıb.

Təşkilatın əhatə coğrafiyasına görə geostrateji önəmini qeyd edən Anar Kərimov GUAM-ın dayanıqlı sülhün və regional əməkdaşlığın inkişafı üçün, eləcə də Şərq və Qərb arasında bağlılıq, kommunikasiya baxımından əhəmiyyətli platforma olduğunu deyib.

Nazir təşkilatın həmçinin mədəniyyət dəhlizi rolunu oynadığını, Azərbaycanın tarixi İpək Yolu üzərində yerləşən ölkələrlə əməkdaşlığa böyük önəm verdiyini diqqətə çatdırıb. Quruma üzv ölkələr arasında əməkdaşlığın layihəyönümlü fəaliyyət istiqamətini gücləndirməklə daha da inkişaf edəcəyini deyən Anar Kərimov Azərbaycan Mədəniyyət Nazirliyi tərəfindən irəli sürülən "Mədəniyyət naminə sülh" (Peace for culture) beynəlxalq platforması haqqında da məlumat verib, layihənin əhəmiyyətini və birgə fəaliyyətin vacibliyini vurğulayıb.

Qəbula görə təşəkkürünü bildirən Altay Əfəndiyev GUAM Katibliyinin üzv dövlətlərlə qarşılıqlı əlaqələrin dərinləşdirilməsi üçün hər zaman dəstək göstərdiyini deyib. Təşkilata üzv ölkələrin ümumi maraqları çərçivəsində daha aktiv əməkdaşlığın vacibliyi qeyd olunub.

# Çap mediası ilə bağlı onlayn platforma

Azərbaycanda çap mediası ilə bağlı onlayn platforma yaradılması üçün texniki şərtlər hazırlanır. Bu barədə Medianın İnkişafı Agentliyinin (MEDİA) icraçı direktoru Əhməd İsmayılov "Media etikası – jurnalist peşəkarlığının əsas prinsipidir" mövzusunda onlayn konfrans zamanı məlumat verib.

Onun sözlərinə görə, mütəxəssislər bununla bağlı MEDİA ilə birlikdə işləyirlər: "Şərtlər toplusu hazır olduqdan, müvafiq qaydada tenderlər həyata keçirildikdən sonra qısa müddət ərzində "e-kiosk", yaxud "e-qəzet" formatında olması düşünüləcək onlayn platformanı cəmiyyətin, ictimaiyyətin istifadəsinə verəcəyik".

Əhməd İsmayılov yeni hazırlanan "Media haqqında" qanun layihəsinin yekunlaşmaq üzrə olduğunu da deyib.

MEDİA tərəfindən təşkil olunan onlayn konfransda Milli Televiziya və Radio Şurasının (MTRŞ) sədri İsmət Səttarov, MTRŞ-nın Aparat rəhbəri Fazil Novruzov, MEDİA-nın şöbə müdiri Natiq Məmmədli və başqa iştirakçılar çıxış ediblər. BDU-nun Jurnalistika fakültəsinin dekanı Vüqar Ziferoğlu "Beynəlxalq jurnalistikada peşə etikası" mövzusunda təqdimat edib.

# İnformasiya-kitabxana sahəsində təcrübə mübadiləsi üçün gözəl imkan

## Bakıdakı kitab bayramından təəssüratlar

6-10 oktyabrda gerçəkləşən VII Bakı Beynəlxalq Kitab Sərgisi ölkəmizin mədəni həyatında hadisəyə çevrildi. Müxtəlif ölkələrdən qonaqların qatıldığı kitab bayramı yaddaşlarda dərin iz buraxdı. Sərginin gedişində həmsöhbət olduğumuz xarici ölkə nümayəndələrinin təəssüratları da fikrimizi təsdiq edir.

Bolqarıstan Milli Kitabxanasının direktoru **Krasimira Aleksandrova**:

– Bolqarıstan Bakıda təşkil edilən sərgidə ilk dəfə iştirak edir. Kitabxanamızın 140 illik tarixi var. Sərgilədiyimiz nəşrlər Azərbaycan oxucularını Bolqarıstanın mədəniyyəti, tarixi, adət-ənənələri, təbiəti, turizmi ilə tanış etdi. Gətirdiyimiz kitabları sərgidən sonra Azərbaycan Milli Kitabxanasına hədiyyə etdik. Bundan sonra Azərbaycan Milli Kitabxanasında Bolqarıstan guşəsi fəaliyyət göstərəcək və kitablar daimi ekspozisiyada oxucuların ixtiyarında olacaq. Azərbaycan Milli Kitabxanası ilə əlaqələrimiz qənaətbəxşdir. Bu ayın sonunda Milli Kitabxananın direktoru Bolqarıstana səfər edəcək və bizim Milli Kitabxanada Azərbaycan guşəsinin açılışını edəcəyik. Bizi bu sərgiyə dəvət etdiyinə görə Azərbaycan Milli Kitabxanasına təşəkkür edirik. Bu həm də təcrübə mübadiləsi üçün mühüm imkandır.

M.İ.Rudomino adına Ümumrusiya Dövlət Xarici Ədəbiyyat Kitabxanasının baş direktoru **Pavel Kuzmin**:

– Çox möhtəşəm bir sərgidir. Bir-birindən rəngarəng kitablar. Müxtəlif ölkələrin nəşriyyatlarının nümayəndələri ilə görüş imkanı... Azərbaycanla yanaşı Türkiyə nəşriyyatları da diqqət çəkir. Çox istərdim ki, rus dilində ədəbiyyat da çoxluq təşkil etsin. Biz Rusiyadan bu sərgidə iştirakımızla qürur duyuruq. Bizim müasir kitabxanaçılıqla bağlı maraqlı layihələrimiz var. Bu səbəbdən də biz Azərbaycan Milli Kitabxanası ilə əməkdaşlıqdan məmnunuq və bilirsiniz ki, bununla bağlı memorandum da imzaladıq. Biz 20 ildən artıqdır əməkdaşlıq edirdik. Amma imzalanmış yeni sənəd bizə daha geniş imkanlar yaradacaq.



Bizim kitabxananın 100 yaşı var. Bu sənəd bizim əməkdaşlığımız üçün yeni bir mərhələ olacaq. Müasir ədəbi nümunələrimizin tanıtımı baxımından, şair və yazıçılarımızın təbliği, təcrübə mübadiləsi sarıdan kompleks şəkildə əməkdaşlığımız davam edəcək və inanıram ki, nəticəsi də uğurlu olacaq.

Ə.Nəvai adına Özbəkistan Milli Kitabxanasının Beynəlxalq əlaqələr şöbəsinin müdiri **Muxtaram Muratova**:

– Sərgidə iştirakım üçün ilk növbədə Özbəkistanın Azərbaycandakı Səfirliyinə və Azərbaycan Milli Kitabxanasına dəvətə görə təşəkkür edirəm. Bu sərgi informasiya-kitabxana sahəsində təcrübələrin bölüşülməsi üçün gözəl imkandır. Sərgidə ən yaxşı nəşriyyatlar və çap məhsulları nümayiş olunur. Biz tanınmış özbək yazıçılarının özbək tarixini, mədəniyyətini, xalqımızın mədəni irsini təbliğ edən əsərləri təqdim edirik. Ekspozisiyamızda ümumilikdə 65 adda kitab və ölkəmizin informasiya-kitabxanaçılıq işini işıqlandıran "İnfolib" jurnalı yer alır. Bu məhsullar sizin kitabxanaya hədiyyə olunacaq. Belə sərgilər və tədbirlər ölkələr arasında mədəni körpü rolunu oynayır və alqışlanası hadisədir.

Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşı, ney ifaçısı **Süleyman Yardım**:

– Azərbaycana yeddinci səfərimdir. Hər gəldiyimdə də öz torpağım qədər sevərək və darıxaraq gəlirəm. Mənim soykötüm də Azərbaycandandır. Bura ikinci vətənim sayılır. Sərginin proqramı çərçivəsində konsertlə çıxış etdik. Ney alətinə Türkiyədə böyük maraq var. Ankara Konservatoriyasında çoxsaylı tələbələrim var. Bizdə ney həm klassik türk musiqisi, həm də sufi musiqisində geniş istifadə olunur. Son dövrlər həm də bəzən Qərb tipli orkestrlərə də ney alətini daxil edirlər. Azərbaycanda da istifadə edilən fərqli ney alətləri var. Bütün nəfəsli alətlər gözəl duyğuları ifadə edir. Bakıda bir neçə konsert proqramı ilə çıxış etmişəm. Azərbaycan musiqisini çox sevirəm. Muğam və mahnıların necə çatdırıldığı mənim üçün çox önəmli idi. Nizamidən, Füzulidən qəzəllərin oxunması bizim təsəvvüf musiqisi ilə çox yaxındır. Sizin musiqi ocaqlarında öyrəndiklərimi Türkiyədə tələbələrimə də çatdırmağa çalışıram. Bakıdan çoxsaylı kitab və notlar alıb aparmışdım. Həmin əsərləri Türkiyədəki orkestrlərlə birgə məşqlər edirik. Kitab sərgisindən də böyük təəssüratla qayıdacağam.

"Almatykitap Baspassy" kompaniyasının (Qazaxıstan) nümayəndəsi **Aneliya Batalova**:

– Bakı sərgisində ilk dəfədir iştirak edirik. Qazaxıstandan bəhs edən 12 adda nəşrimiz sərgilənir. Bu kitablar qazax, rus və ingilis dillərindədir. Bizim kompaniya həmçinin məktəbəqədər uşaqlar üçün dərslik və məktəb dərsliklərinin nəşri ilə məşğuldur. Bakıda əsas sərgilədiyimiz layihə şagirdlər üçün elektron platformadır. Bu layihə şagird və müəllimlərin işinin asanlaşdırılmasına xidmət edir. Bu platforma özündə dərslikləri, tapşırıqları, videoçarx və animasiya filmlərini cəmləşdirir. Hazırda pandemiya ilə əlaqədar dünyanın bir çox ölkələrində onlayn dərs sisteminə keçildiyinə görə layihəmiz aktuallığı ilə seçilir. Azərbaycanlı həmkarlarımız bu platforma ilə maraqlansalar, çox xoş olardı.

Türkiyə Mədəniyyət və Turizm Nazirliyi Kitabxanalar və Yayımlar Baş İdarəsinin müdir müavini **Taner Beyoğlu**:

– Stendimizdə 22 nəşriyyat öz məhsullarını təqdim etdi. Eyni zamanda nəşriyyatlarımız azərbaycanlı həmkarları ilə görüş keçirdilər. Nazirliyimiz bu gün öz kitablarını, eləcə də Türkiyədə nəşr olunmuş iki minə yaxın əsəri təqdim edir. Ümumiyyətlə, stendimizdə beş minə yaxın kitab var. Bununla yanaşı, biz yeni irimiqyaslı TEDA (Türkiyə Ədəbiyyatının Xaricə Açılımı) layihəsini təqdim edirik. Bu layihə çərçivəsində xarici nəşriyyatlar Türkiyədə nəşr olunan əsərləri öz dillərinə tərcümə edir, habelə nəşriyyat və tərcümə işlərinin gedişində çəkilən xərclərə görə bizdən gəlir əldə edirlər. Sərgidə Azərbaycan nəşriyyatlarını bu layihə ilə tanış edirik ki, onlar da Türkiyə əsərlərini Azərbaycan dilinə tərcümə edərək layihədən yararlana bilsinlər. Biz həm də çox maraqlı ədəbi-mədəni proqram hazırlamışıq. Uşaq ədəbiyyatı yazıçılarını da sərgiyə dəvət etmişik. Nəşriyyatlarla çox böyük planlarımız, eləcə də Azərbaycan nəşriyyatları ilə görüşlərimiz olacaq. Ənənəvi formatda kitab sərgisi keçirmək imkanı yazıçılara, publisistlərə və təşkilatçılara enerji verib.

**Lalə AZƏRİ**

# Pakistanda Azərbaycan dili və mədəniyyəti mərkəzi açılacaq



Oktyabrın 13-də Pakistan Müasir Dillər Universitetinin rəhbər heyəti Azərbaycan Dillər Universitetində (ADU) olub.

Görüşdə ADU-nun rektoru, akademik Kamal Abdulla 44 günlük Vətən müharibəsində Azərbaycana göstərdiyi dəstəyə görə Pakistan dövlətinə və xalqına minnətdarlığını ifadə edib.

Vurğulayıb ki, azərbaycanlılarda həmişə Pakistana qarşı sevgi hissi olub. Rektor qonaqlara ali təhsil müəssisəsi haqqında ətraflı məlumat verib. Bildirib ki, ADU-da 20-dən çox dil və mədəniyyət mərkəzi fəaliyyət göstərir: "Biz universitetimizdə Pakistan mədəniyyət mərkəzinin olmasını da arzulayırdıq. Tələbələrimizin, müəllimlərimizin Pakistanın tarixi, mədəniyyəti, dili ilə yaxından tanış olmasını istəyirdik. Mən bununla bağlı Pakistanın Azərbaycandakı səfirinə müraciət etdim. İstəyimiz müsbət qarşılandı və universitetimizdə Pakistan mədəniyyət mərkəzi açıldı".

Kamal Abdulla diqqətə çatdırıb ki, yaxın günlərdə ADU-nun nümayəndə heyəti Pakistan Müasir Dillər Universitetində olacaq və orada Azərbaycan dili və mədəniyyət mərkəzinin açılışında da iştirak edəcək: "Eyni zamanda istərdik ki, Pakistan Müasir Dillər Universitetində Azərbaycan multikulturalizmi fənni tədris olunsun. Bu fənn Azərbaycan tarixini, mədəniyyətini, bu gününü, dilini özündə birləşdirsin. Beləliklə, biz pakistanlı gənclərə Azərbaycan həqiqətlərini daha yaxşı çatdıra bilərik".

Pakistan Müasir Dillər Universitetinin rektoru Məhəmməd Cəfər vurğulayıb ki, Azərbaycan Dillər Universiteti ilə əməkdaşlığı çox müsbət dəyərləndirir. Rəhbərlik etdiyi universitet haqqında məlumat verən rektor qeyd edib ki, ali təhsil müəssisəsi 1969-cu ildə Milli Xarici Dillər Universiteti kimi fəaliyyətə başlayıb: "Hazırkı adı isə Pakistan Müasir Dillər Universitetidir. Universitetin adını dəyişib Müasir Dillər və Elmlər Universiteti etmək niyyətindəyik. Çünki zaman, dövr dəyişir, biz artıq dillərdən çox-çox irəli getmişik. Universitetimizdə 5 fakültə fəaliyyət göstərir. Paytaxt İslamabaddan əlavə 9 şəhərdəki kampuslar ümumilikdə 22 min tələbəni əhatə edir. Universitetimizdə bir çox xarici mərkəzlər var. Növbəti belə mərkəz isə Azərbaycan dili və mədəniyyəti mərkəzi olacaq. Ali təhsil müəssisəsində Qərb və Şərq dilləri olmaqla 21 dil öyrənilir. İstərdik ki, Azərbaycan Dillər Universitetində Pakistan mədəniyyət mərkəzindən əlavə olaraq birbaşa bizim universitetimizlə bağlı mərkəz də açılsın".

Sonra qonaqlar Azərbaycan Dillər Universitetində fəaliyyət göstərən Pakistan mədəniyyət mərkəzi ilə tanış olublar, Məhəmməd Cəfər ADU tələbələrinə mühazirə oxuyub.

# ATMU beynəlxalq əlaqələrini genişləndirir

Azərbaycan Turizm və Menecment Universitetində (ATMU) Macarıstanın ölkəmizdəki səfiri Viktor Sederkenyi ilə görüş keçirilib.

Görüşdə iki ölkənin turizm potensialı və turizm təhsili üzrə əməkdaşlıq imkanlarının genişləndirilməsi məsələsi müzakirə olunub.

Rektor İlham Mədətov universitetin fəaliyyəti, tədris prosesi, beynəlxalq əlaqələri barədə məlumat verib.

Sonra səfirliyin nümayəndələri ATMU-nun turizm ixtisası üzrə təhsil alan tələbələri ilə görüşüblər. İştirakçılara Macarıstanın turizm potensialı və ölkənin təhsil təqaüdləri haqqında məlumat verilib.

Xatırladaq ki, bir müddət əvvəl Macarıstanın Debretsen Universiteti ilə ATMU arasında əməkdaşlıq müqaviləsi imzalanıb. Görüşün məqsədi təhsil sahəsində mümkün əlaqələrin genişləndirilməsi olub.

# Kitab bayramı: uşaq sevinci, qəhvə ətri, faydalı müzakirələr

Yəqin mənim kimi VII Bakı Beynəlxalq Kitab Sərgisini ziyarət etmiş hər kəsin bu kitab bayramı haqqında öz təəssüratları var. Oxucu ilə kitabı görüşdürən, onların vasitəçisiz canlı ünsiyyətini yaradan sərgi maraqlı, fərqli ideya və yeni hədəflər üçün ideal məkan idi.

Sərgi boyu müşahidə etdiyim bir amil daha qabarıq gözə çarpırdı: kitab alıcısı qiymətlə yanaşı, məhsulun keyfiyyətinə də yaxşı diqqət yetirir və öz istehlakçı hüquqlarını birbaşa naşirlərlə müzakirə edirdilər. Böyüklərin ekzotik qəhvə ətrində kitabla ünsiyyətindən fərqli olaraq uşaqlar gah mərkəzin foyesindəki rəsm, qrafika sərgilərində şaqraq qəhqəhələr saçaraq dolaşır, gah boy kukla-aktyorların arasında dövrə vurur, gah da Azərbaycan Dövlət Kukla Teatrının hazırladığı Nizami Gəncəvinin poemaları əsasında "Xəmsə" miniatürləri"ni izləyib alqışlayırdılar. Mərkəzin foyesində qurulan səhnə və klassik kukla elementlərinin böyük Nizami irsinə tətbiqi uşaqların və elə böyüklərin də marağına səbəb olmuşdu. Səyyar səhnənin qarşısında qurulan oturacaqlar daim dolu olur və tamaşaçılar canlı ünsiyyətdən zövq alırdılar.




Fərqli platformalarda maraqlı müzakirə və görüşlərlə yadda qalan sərgi günlərində uşaq kitabı və onların müasir oxucu ilə rabitəsi də söhbət mövzusuna çevrildi. Bu qəbildən "Azərbaycan və Türkiyədə uşaq ədəbiyyatı və nəşriyyat evlərinin cari vəziyyəti" adlı növbəti müzakirə də vacib məqamları ortaya çıxardı.

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Uşaq ədəbiyyatı şöbəsinin müdiri, filologiya elmləri doktoru Elnarə Akimovanın moderatorluğu ilə keçən müzakirədə hər iki ölkədə bu sahə ilə bağlı fəaliyyət istiqamətləri, mövcud çatışmazlıqlar müzakirə olundu. Yaradıcı atmosferdə baş tutan tədbir bir çox məqamları ilə faydalı oldu: hər iki ölkənin uşaq nəşriyyatlarının maraq dairələri, funksionallıq səviyyələri, iş mexanizmləri və yazarlarla əlaqə qurma prinsipləri ilə bağlı çox geniş söhbətlər aparıldı.

Elnarə Akimova sərgidə uşaq ədəbiyyatına geniş yer verilməsini təqdirəlayiq hal kimi dəyərləndirdi: "Sərgi çərçivəsində uşaq ədəbiyyatına yer ayrılması, həm də buna bütün yaş senzinə malik uşaqları nəzərə alaraq reallaşdırmaq səriştəsi təqdir olunası faktdır. Nağıl saatlarının, kukla tamaşalarının təşkil edilməsi, uşaq yazarlarının mətnlərinin təqdimatı ilk dəfədir ki, bu qədər geniş və sistemli şəkildə aparılır. Düşünürəm ki, bu qədər dolğun mühitdə istənilən mövzunu müzakirə və təhlil etmək maraqlı və məhsuldardır. Zənnimcə, Bakı Beynəlxalq Kitab Sərgisinin ən böyük müstəsnalığı müxtəlif ölkələrdə yaşayıb-yaradan qələm adamlarını bir araya cəm edib mənəvi məkan yarada bilməsindədir. Çünki çox isti münasibətlər çərçivəsində baş tutan bu görüşümüz də gələcəyə hədəflənmiş əməkdaşlıq və dostluqların bir halqasıdır".

Türkiyəli qonaqlar – naşirlər Melike Günyüz, Tülin Kozıkoğlu da maraqlı təkliflər səsləndirdilər. Tülin Kozıkoğlu uşaq mətnlərində söz və rənglərin harmoniyası, illüstrasiya məsələlərinə toxundu, psixoloji nüansların diqqətə alınmasının vacibliyini vurğuladı. Melike Günyüz nəşriyyat sahəsinin inkişafına nail olmağın yollarından danışdı. O, hədəflərinin Avropa uşaq ədəbiyyatı nəşrlərində yer almaq olduğunu diqqətə çatdırdı.

"TEAS Press" nəşriyyat evinin "Üç alma" uşaq ədəbiyyatı bölməsinin meneceri Arzu Cəfərov isə Azərbaycan nəşriyyatlarındakı vəziyyətlə bağlı bilgi verdi.

Elnarə Akimova uşaq ədəbiyyatını elmi-nəzəri prinsiplər baxımından öyrənməyin vacibliyindən, bu istiqamətdə ortaya qoyulan işlərdən, uşaq yazarları ilə əlaqələrdən bəhs etdi.

Müzakirəyə qoşulan Nizami adına Ədəbiyyat İnstitutunun baş direktoru, akademik İsa Həbibbəyli isə türkiyəli yazarlarla daim əlaqədə olmaq, birgə layihələr hazırlamaq, iki qardaş ölkənin uşaq ədəbiyyatının bir-birinə yaxınlaşması ilə bağlı təkliflər səsləndirdi.

**Həmidə NİZAMİQIZI**

# Sənət və həyatın vəhdəti

## Ömər Eldarov: "Yaratdığın heykəl tarixdə nə qədər qalırsa, sən də bir o qədər yaşayacaqsan"



"Ömər Eldarovun heykəlləri təsvir olunan şəxsiyyətin və ya hadisənin daşla ifadə edilən rəsmidir. Ömər Eldarovun heykəlləri Azərbaycan heykəltəraşlıq sənətinin qaval daşıdır. Bu heykəllərin bətnində ("mətnində") dərinlikdən gələn bir səs, hənirti hiss olunmaqdadır. Ömər Eldarov Azərbaycan heykəltəraşlıq sənətinin canlı heykəlidir..." deyir akademik İsa Həbibbəyli.

Heykəltəraşlıq sənətimizin canlı əfsanəsi, Xalq rəssamı, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının rektoru, akademik Ömər Eldarovla müsahibəyə payızın leysanlı bir səhərində yol aldıq. Havanın əhvalının yaxşı olmaması Ömər müəllimlə görüşdüyümüz ana qədər mənim də əhvalımdan yan keçməmişdi. Lakin 94 yaşlı sənətkarın çox pozitiv və şən əhvalla bizi qarşılaması, özünəməxsus yumorları, səmimiyyəti söhbətimizi əvvəldən sonadək xoş ovqata köklədi.

Onun yaradıcılığını müşahidə edərkən sənət dühasının hüdudsuzluğunu, bədii təxəyyülünün bənzərsizliyini, obrazlarının dolğunluğunu və bu kimi incə məqamları xüsusilə qeyd etmək olar. O, heykəltəraşlığın dəzgah və monumental, eləcə də memorial abidələr sahəsində bir-birindən maraqlı sənət nümunələri yaradıb. Yaradıcılığının səciyyəvi xüsusiyyətləri kimi obrazların mahiranə plastik həlli, daxili psixoloji xüsusiyyətlərin ustalıqla açılması, kompozisiyanın bitkinliyi və tamlığı diqqət çəkir. Ömər müəllimin dolğun həyat və sənət dünyasına birlikdə səyahət etdik.

*– Ömər müəllim, ilk növbədə müsahibəyə görə təşəkkür edirik.*

– Mən təşəkkür edirəm ki, məni yada salıb, fikir və duyğularıma dəyər verib müsahibəyə gəlmisiniz. Amma ilk olaraq bildirim ki, mən saatlarla danışsam da, yorulmaram. Söhbətləşməyi, fikir bölüşməyi, xatirələri yada salmağı xoşlayan adamam.

*– Xatirələr dediniz, ilk yaratdığınız heykəl yadınızdadırmı?*

– İlk monumental işim Bakının mərkəzi küçələrindən birində ucaldılan Natəvanın heykəli, ondan əvvəl Fəxri xiyabanda Üzeyir Hacıbəylinin qəbirüstü abidəsi olub.

*– Bu iki əsər artıq püxtələşmiş heykəltəraşın işidir. Bəs daha əvvəllər?*

– Mən 3 yaşımdan nələrsə düzəldirəm. O səbəbdən də ilk işim yadıma gəlmir. Bu sualla bağlı yadıma bir əhvalat düşdü və onu tez-tez xatırlayıram. 5 yaşımda anam məni Bakıda fəaliyyət göstərən istedadlı uşaqlar üçün studiyaya apardı. Dedilər ki, indi bizdə rəssamlığa yer yoxdur. Gələn il gələ bilərsiniz. Biz geri qayıdanda hündürboylu bir rus qadın yaxınlaşdı. Adı indiyə kimi yadımdadır: Anna İvanovna Kazantsova. O, mənə yaxınlaşıb mehribanlıqla dedi: "Oğlan, bəlkə sən plastilinlə işləmək istəyirsən? Sən bu kursa yazılsan, böyüyəndə heykəltəraş olarsan, öz şəhərində gəzərsən və qürurlanarsan ki, bu heykəllərin müəllifi mənəm". Bu söz mənə böyük təsir etdi. Mən də həmin an bu arzuları içimdən keçirdim və bu gün 94 yaşımda deyərdim ki, həmin fikirlər öz təsdiqini tapdı...

*– Ən çox monumental və memorial əsərlər yaratmısınız. Bunlardan hansı sizə daha yaxındır?*

– Burada çox fərqli məqamlar, xüsusiyyətlər var. Ən çətin monumental heykəllərdir. Elə məsələlər var ki, biz heykəltəraşlardan asılı deyil. O səbəbdən də monumental əsərlər, bir az çətin olsa da, o heykəlləri yaratmaq daha məsləhətlidir. Bir sözlə, nə qədər ki, sənin yaratdığın heykəl tarixdə qalırsa, sən də bir o qədər yaşayacaqsan. Mənim ilk işim olan Natəvanın heykəli Bakı üçün sanki bir tarixdir. Bu səbəbdən də mən özümü haradasa işinin öhdəsindən gəlmiş müəllif hesab edə bilirəm. Amma dəzgah nümunələri ya emalatxanada, sərgidə, ya da muzeydə qalır. Muzeydə qalması daha yaxşıdır.

*– İşlədiyiniz heykəllərin hər biri bir insan taleyi olmaqla bərabər, həm də tariximizin bir parçasıdır. Hər bir heykəli işləyəndə yəqin ki, qəhrəmanınızın həyat və fəaliyyətini dəqiqliklə öyrənir, onun obrazını yaradırsınız. Bu proses sizə daxilən necə təsir edir?*

– Bilirsiniz ki, mənim işlərim ancaq Azərbaycanda qoyulmayıb. Orta Asiyada, Cənubi Koreyada və s. ölkələrdə. 1979-cu ildə Düşənbədə Sədrəddin Ayninin heykəlini yaradanda heç onun haqqında məlumatım yox idi. Amma məni çağırdılar və abidəni sifariş verdilər. Adını ilk dəfə eşidirdim. Bir neçə əsərini oxudum, onun haqqında yazılan fikirlərlə tanış oldum. Yalnız bundan sonra işə başladım. Bunsuz olmaz heç vaxt. Daxilən də hədsiz təsir edir. Biz axı onun həm də xarici görünüşünü təsvir edirik. Bu surətinin gerçək təsvirinə uyğun olub-olmaması da böyük önəm kəsb edir. Xarakteri ilə görünüş üst-üstə düşəndə çox gözəl nəticə verir. Məsələn, Səttar Bəhlulzadə. Bu insan heykəltəraşlıq üçün əsl məhsuldur. Onun görünüşü, yaradıcılığı hədsiz imkanlar yaradır. Amma elə işlər də var ki, onu yaratmaq çətindir. Çünki fəaliyyəti kasaddır.



*– Hazırda əlinizdə hansı iş var?*

– Görkəmli bəstəkar Arif Məlikovun heykəlinin layihəsi ilə məşğulam. Hələ ki, tam olaraq məlumat verə bilmərəm. Hələlik rəsmi təsdiqlənməyib. Müslüm Maqomayevin heykəlini isə tamamlamışam. Heykəlin qoyulacağı yer də məlumdur. Biz o heykələ elə yer tapmalıydıq ki, abidə möhtəşəm görünsün. Heykəl Bakı bulvarında qoyulacaq.

*– Tək işləyirsiniz, yoxsa komanda ilə?*

– Ancaq tək. Mən komanda ilə? Mənim hətta yanımda bir memar dayanıb heykələ baxsa belə, işləyə bilmərəm. Əvvəldən tək işləməyə öyrənmişəm. Hətta ailə üzvlərimdən kimsə yanımda olsa, işi kənara qoyuram, işləmirəm.

*– Bildiyim qədər, babanız daşyonan olub. Yəqin sizə də ondan keçib bu sənət...*

– Mənə həsr edilən kitabda babamın və nəslimin fotosu var. Onu tez-tez xatırlayıram. Mənim ulu babalarım təbii güllər yetişdirirdilər. Onlardan xalça toxuculuğunda sapları boyamaq üçün istifadə edilirdi. Hər il aparıb Moskvada satırmışlar. Bir gün babam Moskvaya məhsul aparanda ona xəbər verirlər ki, yeni kimyəvi rənglər ixtira edilib və qiyməti də ucuzdur, artıq bu rənglərə ehtiyac yoxdur. Babam da qayıdıb özünə başqa sənət seçməli olur. Beləliklə, başlayır daş yonmağa. Yəqin ki, haradasa mənə də təsiri olub.

*– Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının fəaliyyətini bu gün necə qiymətləndirirsiniz?*

– Mənə deyirlər, düzü, özüm xəbərsizəm (Ömər müəllim sualımıza zarafatla cavab verir). Deyirlər, reytinq çox yuxarıdır. Bilirsiniz ki, qəbul artıq başa çatıb. Bu səhər Elmi şuranın iclası idi. Maraq yüksəkdir bizim akademiyaya. Hər il qəbulda ən yüksək plan olur bizdə. Bütün yerlərimiz dolub. Bu il sənətşünaslıqda 4, heykəltəraşlıqda isə 1 yerimiz boş qalıb. Heykəllə işləmək çox çətindir. Həm də qabiliyyət məsələsi var. Bir misal da deyim. Əvvəllər əgər heykəltəraşlıqda 10 yerə ancaq oğlanlar qəbul olunurdularsa, bu il əksinə oldu. Heykəltəraşlığa bütün yerlərə qızlar daxil olub.

*– Yeri gəlmişkən, qadın heykəltəraşlar arasında ən çox kimin sənətini bəyənirsiniz?*

– Bəlkə də hamını xatırlaya bilməyəcəyəm. Anna Qolubkina adlı heykəltəraş var idi. Vera Muxina – məşhur "Fəhlə və kolxozçu" heykəlinin müəllifi. Bizdə isə Həyat Abdullayeva. Biz onu Elya deyə çağırardıq. Mənə görə ən güclü heykəltəraşımız o idi. Onun işləri çox incə və plastik, özünəməxsus idi. Zivər Məmmədova da unudulmaz sənətkarlardandır.

Söhbətimiz əsnasında Ömər müəllim mədəniyyətimizin böyük himayədarı ulu öndər Heydər Əliyevlə bağlı xatirələri də yada salır. Ən unudulmaz xatirəni xəbər alırıq.

– Həmişə yadıma birinci dəfə Mərkəzi Komitəyə çağırılmağım düşür. O vaxt Heydər Əliyev Moskvada işləyirdi, Siyasi Büronun üzvü idi. Kamran Bağırov respublikanın rəhbəri idi. O məni çağıranda bir az qorxmuşdum. MK-da çalışan Həsən Həsənov zəng edib dedi ki, həyəcanlanma. Getdim ki, Heydər Əliyev və Kamran Bağırov oturublar. Mənə bildirdilər ki, Heydər Əliyevin heykəli anadan olduğu Naxçıvan şəhərində qoyulmalıdır. Uzun bir xatirəsi olan bu söhbəti qısa olaraq deyərdim ki, həmin işimiz mənim üçün unudulmaz xatirəyə çevrilib.



Bu arada qeyd edim ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin çoxsaylı heykəllərinin müəllifi olan Ömər Eldarov heç vaxt özünü təkrar etməyib. Hər dəfə bu dahi şəxsiyyətin obrazını yaradarkən onun möhkəm iradəsi, qətiyyəti, müdriklik və uzaqgörənliyini parlaq şəkildə əks etdirib. Yaxından tanıdığı, şəxsiyyətinin və siyasətinin miqyasını aydın surətdə mənimsədiyi liderin daha çox özünü, malik olduğu dərinlik və ucalığı açmağa çalışıb. Bu heykəllər üçün münasib məkanın seçilməsi də mühüm amillərdəndir. Ulu öndərin sağlığında (sovet dövründə iki dəfə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülənlərin sağlığında abidəsi-büstü qoyulurdu – red.) Naxçıvan şəhərində ucaldılmış büstünün (1983) arxasında görünən Möminə xatın türbəsi və Araz çayı böyük dövlət xadiminin obrazına daha da canlılıq gətirib.

*– Gənc heykəltəraşların işini necə qiymətləndirirsiniz?*

– Mən həmişə deyirəm, bizim gənclər çox istedadlıdırlar. Millətlərin biri inşaatda güclü olur, digərində başqa bir sahənin xüsusiyyətləri qabarıq olur. Bizim xalq isə rəssamlıq, heykəltəraşlıq və sənətdə daha güclü, hədsiz bacarıqlıdır. Əfsus ki, indi gənclər üçün sifarişlər çox azdır...

*– Çox istərdim ki, "Zamanın dörd rəngi" əsərinizdən danışaq...*

– Bu əsərdə mən qadınların obrazında fəsilləri tərənnüm etmişəm. Bahar mənim böyük qızımın, yay rəhmətlik həyat yoldaşımın, payız və qış isə fantaziyamın nümunəsidir. İkimetrlik qoz ağacından hazırladığım bu iş çox çətin və məsuliyyətli bir sənət əsəri idi.

*– Ömər müəllim, bir müddət əvvəl rektorluqdan gedəcəyinizi bildirmişdiniz (Bu suala da Ömər müəllim özünəməxsus yumorla cavab verir).*

– Qoca kişiyəm, çox söz deyə bilərəm. Hər dediyim sözü ciddi qəbul etməyin. Dostlar və əməkdaşlarımız deyir ki, mən bu akademiyanın simasıyam. Bəlkə də düz deyirlər, nə bilim. Həm də dünyanın hansı ölkəsində 94 yaşlı rektor var?... Prezident Heydər Əliyev məni bura rektor təyin etdi, İlham Əliyev təsdiqlədi. Hamı rektor ola bilər...

Söhbətimizin sonunda isə Ömər müəllim sənətin onun üçün həyatının bir parçası olduğunu dedi: "Mənim üçün sənət və həyat vəhdət təşkil edir. Sənət yaşam tərzimdir. Bunsuz yaşayışımı təsəvvür etmirəm".

Beləcə, yağışlı, soyuq bir payız günü qocaman sənətkarımızdan ona cansağlığı və yaradıcılıq uğurları diləyilə ayrılırıq...

**Lalə AZƏRİ**

## Kinorejissor Vaqif Mustafayev ADU-nun tələbələrinə ustad dərsi keçib

Azərbaycan Dillər Universitetində (ADU) Magistratura şöbəsinin təşkilatçılığı ilə görkəmli kinorejissor, Xalq artisti Vaqif Mustafayev tələbələrə ustad dərsi keçib.

Universitetdən bildirilib ki, görüşdə sənətin incəlikləri və həyatda sənətin rolu barədə danışılıb. Sənətkar tələbələrə mədəniyyət dünyasında baş verən proseslərdən söhbət açıb. Qeyd olunub ki, sənətin mahiyyətini və əsl imkanlarını duymaq və anlamaq insanların ətraf aləmlə münasibətinə çox ciddi təsir edir.

Rejissor bildirib ki, istənilən ixtisas sahibinin bilməli olduğu məsələlər içərisində mədəniyyət və ədəbiyyat sahəsi önəmli yer tutur. Bu, istər müəllim, istər həkim, istər mühəndis olsun, fərq etmir. Hər kəs mədəni və ədəbi düşüncə baxımından müasir dünya ilə ayaqlaşmağa çalışmalıdır.

ADU-nun Pedaqogika kafedrasının müəllimi Vidadi Bəşirov qonaq haqqında ürək sözlərini söyləyib, Vaqif Mustafayevin Vətənə, millətə xidmətlərindən söz açaraq, tələbələrə bundan nümunə götürməyin vacibliyindən danışıb.



Sonda tədbir iştirakçılarına təşəkkürünü bildirən rejissor çəkdiyi filmlərin kadrarxası məqamlarından, qarşılaşdığı maraqlı hadisələrdən bəhs edib, tələbələri maraqlandıran sualları cavablandırıb.

## Bakı Marionet Teatrı yeni mövsümə başlayır

Oktyabrın 16-da Bakı Marionet Teatrı "Leyli və Məcnun" tamaşası ilə yeni mövsümünün açılışını edəcək.



Dahi bəstəkar Üzeyir Hacıbəylinin eyniadlı operası əsasında hazırlanan marionet tamaşanın quruluşçu rejissoru və rəssamı Tərlan Qorçu, musiqi aranjimançısı Salman Qəmbərov, kukla ustası Tengiz Xalvaşı, işıq işləri üzrə rəssam Azər Muxtarov, səhnə qurğularının müəllifi İlkin Mirzəyevdir.

"Leyli və Məcnun" muğam operasının 14 pərdəlik marionet tamaşası üzərində 3 il ərzində iş gedib, premyera 2016-cı ilin dekabrında keçirilib. Marionet Teatrı İçərişəhərdə, M.Maqomayev 20 ünvanındakı tarixi binada fəaliyyətə bu tamaşa ilə başlayıb.

Dekorasiya, kukla və rekvizitlər müxtəlif ölkələrin teatr ustalarının iştirakı ilə hazırlanıb. Aktyorların idarəsi ilə marionet kuklalar faciəvi məhəbbət əfsanəsinin qəhrəmanlarını təkraredilməz şəkildə canlandırırlar. Bakı Marionet Teatrı "Leyli və Məcnun" tamaşası ilə Fransa, Xorvatiya və başqa ölkələrdə çıxış edib.

## "Triumf sirki" Bakıda "Hünər meydanı" adlı proqramla çıxış edəcək

8-9 noyabr tarixlərində Rusiyanın "Triumf sirki" Bakı Dövlət Sirkində "Hünər meydanı" adlı geniş proqramla çıxış edəcək. 44 günlük müharibədə Qələbənin ildönümünə həsr olunan proqramın ilk təqdimatı qazi və şəhid ailələri üçün nəzərdə tutulub.

"Hünər meydanı" proqramında sirk sənətinin bütün ekstremal janrları bir araya gələcək. Hava gimnastları, akrobatlar, kaskadyorlar öz məharətlərini göstərəcək. İllüziyaçılar nümayiş etdirdiyi nömrələrlə tamaşaçıları darıxmağa qoymayacaq. Çıxışlar müasir dövrün mahnıları ilə müşayiət olunacaq.

Həmvətənimiz Allahverdi İsrafilovun rəhbərlik etdiyi "Triumf sirki" şou-proqramların hazırlanmasında böyük təcrübəyə malik qrupdur. Kollektiv müxtəlif ölkələrdə qastrol səfərlərində olub.

Qeyd edək ki, şou-proqramın 2022-ci il yanvarın 10-dək həftənin cümə, şənbə və bazar günləri nümayişi nəzərdə tutulub.

## Gənc rejissor beynəlxalq teatr festivalına qatılıb

Gəncə Dövlət Dram Teatrının gənc rejissoru Elşad Əhmədov Türkiyədə keçirilən 3-cü Maltəpə Beynəlxalq Teatr Festivalında (İstanbul) ölkəmizi təmsil edib. 7-10 oktyabr tarixində baş tutan teatr bayramına Ukrayna, Rusiya, Özbəkistan, Serbiya, İspaniya və digər ölkələrdən nümayəndələr qatılıb.

Gəncə Dövlət Dram Teatrının ədəbi-hissə müdiri Anar Burcəliyevin verdiyi məlumata görə, festival komitəsinin qərarına əsasən, iştirakçılar Azərbaycan, Türkiyə, Serbiya, Ukrayna, Özbəkistandan olan jüri üzvləri tərəfindən ümumilikdə 10 nominasiya üzrə qiymətləndirilib.

Festival çərçivəsində ustad dərsləri də təşkil olunub. Serbiya Dövlət Teatrının bədii rəhbəri və direktoru İvana Nedeljikoviç "Tamaşa zamanı emosiyaların idarə edilməsi", Gəncə Dövlət Dram Teatrının rejissoru Elşad Əhmədov "Aktyor müşahidəsi və xarakter analizi", ukraynalı aktrisa Natalya Polovyanka "Söz və səs" adlı ustad dərsləri keçiblər.

## "Xarıbülbül"ün açılışı böyük Zəfəri gözləyirdi

"Xarıbülbül" Azərbaycan Vizyon Teatrının açılışı Zəfərimizi gözləyirdi. Biz artıq altı ildir ki, Türkiyə-Azərbaycan Vizyon Teatrı olaraq fəaliyyət göstərdik. İndi qürurla "Xarıbülbül" adını daşıyır, bu ada layiq olmağa çalışırıq. Bu Zəfəri bizə yaşadan Ali Baş Komandanımıza, şanlı Azərbaycan Ordusuna minnətdarıq. Vətən torpağı uğrunda canından keçən şəhidlərimizin ruhu qarşısında baş əyir, qazilərimizə cansağlığı arzu edirəm. Oğullarımız bizim alnımızı açıq etdilər.

Bu fikirləri İstanbulda fəaliyyət göstərən "Xarıbülbül" Azərbaycan Vizyon Teatrının rəhbəri Kamalə Cabbarova söyləyib.

Hazırda Qarabağ Zəfərinin birinci ildönümü münasibətilə yeni tamaşa üzərində işlədiklərini deyən Kamalə Cabbarova ən böyük arzusunun teatr kollektivi ilə birgə Şuşada tamaşa nümayiş etdirmək olduğunu bildirib.

# Şəhid ədliyyə kapitanı

Vətən müharibəsində torpaqlarımızın azadlığı uğrunda canından keçən qəhrəmanlardan biri də Ruhin Müzəffər oğlu Xəlilovdur.



Ruhin 1987-ci ilin 13 martında Cəbrayıl rayonunun Məzrə kəndində anadan olub. 1993-cü ildə Cəbrayıl rayonu işğal olunanda 6 yaşlı Ruhinin ailəsi Abşeron rayonunun Xırdalan şəhərində məskunlaşır. O, ilk təhsilini Xırdalan şəhər 1 saylı tam orta məktəbdə alır.

2005-ci ildə Bakı Asiya Universitetinin Hüquqşünaslıq fakültəsinə daxil olan R.Xəlilov 2009-cu ildə ali məktəbi bitirir. Sonra hərbi xidmətə gedir. Ruhin yaşa dolduqca Vətən nisgilini də içində böyüdürdü. İnanırdı ki, nəhayət, bir gün doğma rayonunun azad edilməsi uğrunda döyüşən əsgərlərdən biri onun özü olacaq...

Hərbi xidməti başa vurandan sonra Ruhin ədliyyə işçisi kimi Biləsuvarda, İmişlidə çalışır. Qulluğunu nöqsansız yerinə yetirməsi rəhbərlik tərəfindən təqdirlə qarşılanır. 2019-cu ildə Ədliyyə Nazirliyinin İcra Baş İdarəsində məsləhətçi vəzifəsinə irəli çəkilir və ədliyyə kapitanı rütbəsi alır.

2020-ci ilin iyulunda baş verən Tovuz döyüşləri zamanı general-mayor Polad Həşimovun şəhadət xəbərini alan kimi ailəsindən xəbərsiz könüllü olaraq cəbhəyə getmək üçün yazılır. Vətən müharibəsi başlayandan 4 gün sonra – oktyabrın 1-də cəbhəyə yollanır. Cəbrayıl, Zəngilan, Qubadlı uğrunda gedən döyüşlərdə şücaət göstərir. Oktyabrın 21-də döyüşlərin birndə Ruhin yaralı döyüş yoldaşını xilas etmək üçün irəli atılır. Düşmən onu qarın boşluğundan yaralasa da, yoldaşını yerə qoymur, güllə yağışı altından çıxarmağa davam edir. Növbəti güllə ürəyindən dəyir və şəhadətə yüksəlir.

2012-ci ildə ailə quran Ruhinin Qönçə və Melisa adlı qızları, Tunar adlı oğlu yadigar qalıb.

Şəhidin həyat yoldaşı Günel Xəlilova qeyd edir ki, Tovuz döyüşlərindən bir neçə gün sonra Ruhin cəbhəyə getmək üçün adını yazdıranda mən bir az ağladım, acıqlandım: "Axırda dedim ki, onda mənim adımı da yazdır. Sən hara getsən, mən də səninlə gedəcəyəm. Razılaşdı, şəxsiyyət vəsiqəmlə mən də onlayn qeydiyyata düşdüm. İxtisasca tibb bacısı olduğumdan ümidliydim ki, mən də onunla gedə bilərəm. Ancaq sonradan Ruhin məndən xəbərsiz qeydiyyatımı ləğv etdirdi. Sentyabrın 30-da Ruhin evə gəlib söylədi ki, sənədlərimi hərbi komissarlığa təqdim edib qayıdacağam. O, evdən çıxanda gördüm ki, iş paltarında yox, mülki geyimdə gedir. Heç nədən şübhələnmədim. Dostu gəlib onu maşınla apardı. Bir neçə saat sonra ona zəng vurdum, lakin əlaqə saxlaya bilmədim. Daha sonra dostu mənə zəng vurub dedi ki, Ruhin cəbhəyə getdi. Onunla sonuncu dəfə oktyabrın 19-da əlaqə saxladıq. "Hər şey yaxşıdır, narahat olmayın" deyib telefonu söndürdü. Səhərisi gün ona zəng çatmadı. Ayın 21-i isə şəhid olduğu xəbərini aldıq".

Ruhin Xəlilov oktyabrın 22-də II Fəxri xiyabanda torpağa tapşırılıb. Ölkə başçısının müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunub. Həmçinin Ədliyyə Nazirliyi tərəfindən Ruhin Xəlilova ölümündən sonra "Fəxri ədliyyə işçisi" adı verilib.

Allah rəhmət eləsin.

**NURƏDDİN**

# Şəhid Yaqub Yaqubzadənin ailəsi ziyarət edilib

Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Ramana qəsəbə Mədəniyyət evinin əməkdaşları Vətən müharibəsi şəhidi Yaqub Eldəniz oğlu Yaqubzadənin ailəsini ziyarət ediblər.



İdarədən bildirilib ki, Yaqub Yaqubzadənin anası, atası və yaxınları onun qısa ömür yolundan, müharibəyə getməsindən danışıblar.

Yaqub Yaqubzadə 1999-cu il aprelin 22-də Bərdə rayonunun Alaçadırlı kəndində anadan olub 2005-2016-cı illərdə paytaxtın Xəzər rayonunda 92 nömrəli tam orta məktəbdə təhsil alıb. 2016-2020-ci illərdə Tbilisi şəhərində Gürcüstan-Avropa Universitetində kompüter mühəndisliyi ixtisası üzrə ali təhsil alıb. Subay idi.

Yaqub Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak edib. Cəsur döyüşçü oktyabrın 2-də şəhid olub. Xəzər rayonunun Qala qəsəbəsində dəfn olunub.

Ölümündən sonra dövlət başçısının müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edilib.

Allah rəhmət eləsin.

# "Olmazmı ki, qəm çəkincə güləsən..."

XX əsr Azərbaycan aşıq sənətində adı hörmətlə yad olunan ustadlar arasında Mikayıl Azaflı da var. Ömür yolu hamar olmasa da, xalqın alqış və sevgisini qazanan sənətkar dəyərli şeirlər müəllifi kimi tanınıb.



Mikayıl Cabbar oğlu Zeynalov 21 mart 1924-cü ildə Tovuz rayonunun Azaflı kəndində dünyaya göz açıb. Hələ kiçik ikən atası qəflətən vəfat edir. Mikayıl əmisi Həsənin himayəsində qalır. Deyilənə görə, onda aşıq sənətinə maraq əmisindən qaynaqlanır. Mikayıl orta məktəb illərində istedadlı bir gənc kimi diqqət çəkir. "Solğun" və "Coşqun" təxəllüsləri ilə şeirlər yazır. Daha sonra doğma kəndinin adını özünə təxəllüs götürür.

Araşdırmalarda Mikayıl Azaflının keşməkeşli tale yaşadığı qeyd edilir. Bildirilir ki, yeddinci sinifdə oxuyarkən Stalinin şəklini kitabının üzərinə yapışdırır. Şagirdlərdən biri şəklin üzərinə mürəkkəb tökür. Bundan xəbər tutan məktəbin direktoru ondan qaçıb canını qurtarmasını məsləhət görür. Beləliklə, Mikayıl məktəbdən ayrılır. Bir müddət Goranboy rayonunda qohumlarının evində qalır. Onun qaçmaq səbəbi bilinəndən sonra qohumları da evlərində saxlamır. Çətin də olsa, ailə qurur, təvəllüd tarixini dəyişdirir. Bir başqa gəncin əvəzinə Goranboy rayonundan müharibəyə gedir. Müharibənin çətinliklərinə dözməyib Bakıya qayıdır və dərhal həbs edilir... Aşıq həbsdən qurtardıqdan sonra dövrdən, quruluşdan gileyli şeirlər yazır. Bu isə onu növbəti dəfə həbsə aparırdı. Bir gün dostunun ona "bağışladığı" bahalı palto ilə Tiflis şəhərində gəzərkən tutulur. Bir nəfər gəlib deyir, bu palto mənimdir, cibində adım yazılıb. Yoxlayırlar ki, düz deyir. Evində də axtarış aparılır. Evdən ona məxsus silah tapılır. Mikayıl Azaflı 1961-ci ildə yenidən həbs olunur.

El şənliklərində daim hörmət-izzətlə qarşılanan aşıq xalqdan ayrı düşür, zindan həyatı yaşayır. Vaxtsız ağaran saçlarından təsirlənir və yazır:

*Olmazmı ki, qəm çəkincə güləsən,*
*Nədən oldu yanıb döndün külə sən.*
*Qırx yaşına çatmamısan hələ sən,*
*Ağarmayın, ay saçlarım, amandı.*

"Zindan şeirləri" adlı kitabında müəllifin 150-dən artıq qoşması yer alıb. "Bülbül", "O mənəm", "Sən demə", "Deyəmmərəm", "Ağlama", "Döndü körpələrin qana yaşları", "Bənzər", "Dar günü", "Əlaman, aman", "Ağlar, ağlar", "Zindan", "Mən qocalmazdım" kimi bir çox şeirləri həbs həyatının çətinliklərindən yaranıb. Qəm-kədər yüklü misraları şair zindanda ikən onun hüdudlarını aşır. Hər kəsin duyğularını sarır və öz sehrində saxlayır.

Mikayıl Azaflı 1965-ci ildə həbsdən azad edilir. XX əsrin 80-ci illərinə qədər televiziya, radio və mətbuat üzünə bağlanır. Ancaq xalq onu əvvəlkindən də çox sevir və alqışlayır. Yaradıcılığını maraqla izləyir, şeirləri dillər əzbərinə çevrilir.

*Azaflı Mikayıl, yaranan köçür,*
*İnsan bir zəmidi, Əzrayıl biçir.*
*Əsrlər dolanır, ömür-gün keçir,*
*Dünyadan payını al vədəsində.*

Mikayıl Azaflı şifahi xalq ədəbiyyatının əksər şəkillərində bir-birindən gözəl əsərlər qələmə alıb. O, klassik aşıq ənənələrini layiqincə davam etdirib, gəraylı, təcnis, qoşma, müxəmməs, divani, vücudnamə, ustadnamə, ithaf, nəzirə, bağlama-qıfılbənd və s. nümunələri saz-söz pərəstişkarlarını məftun edib. Sənətkarın "Azaflı dübeyti", "Azaflı gözəlləməsi", "Azaflı sənəti", "Azaflı gəraylısı", "Mikayılı", "Məzahiri", "Azaflı dağları", "Azaflı bəhri", "Azaflı müxəmməsi", "Şah sarayı" kimi saz havaları sənətsevərlər tərəfindən maraqla qarşılanıb, aşıqların repertuarında yer alıb.

Mənbələrdə o da qeyd edilir ki, bir gün Mikayıl Azaflı Goranboy Borsunlu kəndində tanınmış şair, aşıq Məzahir Daşqının (1909-1979) təşkil etdiyi aşıqlar məclisində olur. Səməd Vurğun da məclisə gəlir və çıxış edir, bir şeirini oxuyur. Mikayıl Azaflıya da söz verilir. O da bir şeir oxuyur. S.Vurğun ondan nə olmaq istədiyini soruşur. Müəllim olmaq istədiyini deyir. S.Vurğun iki kağız yazır. Birini Aşıq Mirzəyə göndərir ki, bu adamdan yaxşı aşıq olar. Onu şəyirdliyə götür. İkincisini də Qazax Müəllimlər Seminariyasının direktoruna yazır ki, onu bu təhsil ocağına qəbul etsinlər. Mikayılı seminariyaya qəbul edirlər. Bir gün təsadüfən seminariyaya kəndlərindən bir nəfər gəlir. Onu görür və dərhal direktorun yanına gedib Mikayılın siyasi məhbus olduğunu deyir. Nəticədə onu seminariyadan xaric edirlər. Oradan Aşıq Mirzənin ardınca gedir. Ancaq eşidir ki, Aşıq Mirzə vəfat edib. Bundan sonra Mikayıl Aşıq Əsəd və Aşıq Yusifdən sənətin sirlərini öyrənir...

1984-cü ildə aşıqların IV qurultayında Mikayıl Azaflı da çıxış edir. O, aşıq sənətinin inceliklərindən və qarşıda duran vəzifələrdən söz açır. Qurultayda aşıq sənətinin inkişafında göstərdiyi fədakarlıq və xidmətləri qeyd edilir. Aşıqlar Birliyinin sədr müavini seçilir. 1989-cu il Mikayıl Azaflı üçün daha əlamətdar olur. Novruz bayramı şənliklərində xalqımızın müdrik qəhrəmanı Dədə Qorqud obrazı ona həvalə edilir. Həmin il sənətkara "Əməkdar mədəniyyət işçisi" fəxri adı verilir.

Ancaq bu sevincli günlərin ömrü uzun olmur. Mikayıl Azaflı 12 oktyabr 1990-cı ildə vəfat edir. 2019-cu ildə sənətkar haqqında "Qoca qartalın əbədi uçuşu" adlı sənədli film lentə alınıb.

**Savalan FƏRƏCOV**

# Qədim diyarın tərənnümçüsü

## Hüseyn Razi poetik zənginliyi ilə seçilən yaradıcılıq irsi yadigar qoyub

Onu XX əsr Naxçıvan ədəbi mühitinin ən tanınmış nümayəndələrindən biri kimi tanıyırlar. Azərbaycan ədəbi mühitində də sevilən, qəbul edilən şair, nasir, dramaturq, publisist, Əməkdar incəsənət xadimi Hüseyn Razinin sağlığında on üç kitabı nəşr olunub. Azərbaycanın görkəmli qələm adamları onun haqqında yüksək fikirlər söyləyib, məqalələr dərc ediblər.

"Dəstə kəndi" şeirində

*Xan Araz asılıb ətəklərindən,*
*Arxası söykənib Kəmki dağına.*
*Heyrətlə baxıram sübh çağında mən,*
*Bu kəndin yuxudan oyanmağına.*

*İlk şəfəq darağı xeyli dərindən,*
*Axıb üfüqdəki cilanı qırır.*
*Günəş Ələngəzin çiyinlərindən*
*Qızıl xonça kimi göz qamaşdırır -*

deyən Rzayev Hüseyn Məmməd oğlu (Hüseyn Razi) 17 oktyabr 1924-cü ildə Ordubad rayonunun Dəstə kəndində anadan olub. Ordubad Pedaqoji Məktəbini bitirdikdən sonra 1941-1943-cü illərdə Culfa rayonunun Ərəzin kənd orta məktəbində müəllim işləyib. 1941-1945-ci illər müharibəsində Sovet ordusu sıralarında Oryol ətrafında gedən döyüşlərdə iştirak edib, yaralanıb. Sağaldıqdan sonra kiçik təyyarə mütəxəssisləri məktəbini bitirib, Baltikyanı cəbhəsində əlahiddə uzaq kəşfiyyat alayında xidmətini davam etdirib. 1945-ci ildə ordudan tərxis olunan H.Razi 1954-1959-cu illərdə indiki Bakı Dövlət Universitetinin Filologiya fakültəsində qiyabi təhsil alıb.

H.Razi Ordubadda səkkizillik məktəbdə müəllim, Dəstə kəndində klub müdiri, Naxçıvan Radio Verilişləri Redaksiyasında redaktor, "Şərq qapısı" qəzeti redaksiyasında ədəbi işçi, Azərbaycan Teleqraf Agentliyinin (indiki AZƏRTAC) Naxçıvan üzrə xüsusi müxbiri, "Sovet Naxçıvanı" ("Şərq qapısı") qəzeti redaksiyasında Ədəbiyyat və incəsənət şöbəsinin müdiri (1962-1990) vəzifələrində işləyib.

H.Razi ədəbi fəaliyyətə 1941-ci ildə "Şərq qapısı" qəzetində dərc olunan "Partizanın andı" şeiri ilə başlayıb. Daha sonra o, dövri mətbuatda müntəzəm çıxış edib, poetik yaradıcılıqla yanaşı, bədii tərcümə ilə məşğul olub. Dramaturgiya sahəsində özünü sınayan ədibin "Odlu diyar" (1963), "Günəş" (1968), "Arxalı dağlar" (1971), "Haray səsi" (1978), "Şirinliyin acısı" (1981) pyesləri teatrlarda tamaşaya qoyulub.

1958-ci ildən Azərbaycan Yazıçılar Birliyinin, 1959-cu ildən isə Jurnalistlər Birliyinin üzvü olan şair 1984-cü ildə Naxçıvanın, 1985-ci ildə isə Azərbaycan SSR-in "Əməkdar incəsənət xadimi" fəxri adlarına layiq görülüb.



H.Razi ilə Xəlil Rzanı sıx dostluq telləri bağlayırdı. Şairin "Ayrılmaram" (1981) adlı kitabına "Qədim diyarın tərənnümçüsü" adlı dost sözündə X.R.Ulutürk yazırdı: "Dəstə kəndi qızılgüllər oylağıdır. Bir yanda qocaman Ələngəz dağı, bir yanda ucsuz-bucaqsız qızılgüllər səltənəti. Yanılmıramsa, 1959-cu il idi. Yazağzı Naxçıvanı ilk dəfə gəzirdim. H.Razinin öz kəndlərini necə böyük məhəbbətlə göstərdiyini, tanıtdığını indi də xatırlayıram... H.Razinin poeziyası daxili enerjiyə, ilham yanğısına malikdir. İlham isə dil sərrastlığı üçün başlıca təminatdır".

Şair Rüstəm Behrudi H.Razi haqqında məqaləsində onunla ilk görüşünü xatırlayır, onun şeirlərinin dərc olunmasına göstərdiyi xeyirxah əməlini qeyd edərək yazır: "H.Razini ədəbiyyat biliciləri "Naxçıvanın Səməd Vurğunu" adlandırırdılar... Naxçıvan ədəbi mühitindən çıxan elə bir şair yoxdu ki, H.Razi şeirindən təsirlənməsin".



"H.Razi haqqında söhbət düşəndə ən əvvəl xəyalıma Naxçıvan torpağı gəlir, çünki onu bu torpaqdan ayrı təsəvvür etmək qeyri-mümkündür. Şair üçün Naxçıvan təkcə coğrafi məfhum deyil, adicə torpaq deyil, böyük, zəngin bir tarixdir, ənənədir, mənəvi sərvətdir, məhəbbətdir". Bu fikirlər isə şair Tofiq Mahmuda məxsusdur.

Ümumiyyətlə, H.Razi haqqında Süleyman Rüstəm, Məmməd Araz, Bəxtiyar Vahabzadə, Nəriman Həsənzadə, Qabil, Hüseyn İbrahimov, Müzəffər Nəsirli, Yavuz Axundlu, Rafiq Babayev və başqa tanınmış şair, yazıçı və ədəbiyyatşünas alimlər yüksək fikirlər söyləyiblər. Onun nəşr olunmuş hər kitabı maraqla qarşılanıb, haqqında müsbət resenziyalar dərc edilib. Həmçinin H.Razinin həyat və yaradıcılığından dissertasiya müdafiə olunub, monoqrafiya və biblioqrafiya çapdan çıxıb. Şairin şeirlərinə tanınmış bəstəkarlarımız musiqi bəstələyib, məşhur müğənnilərimiz tərəfindən ifa olunub.

*İlhama çağırır məni xoş anlar,*
*Xoşbəxtdir vətəndən ilham alanlar.*
*Fəqət, bərk ayaqda xalqı dananlar*
*Min əsər yazsa da, elə yetişməz...*

27 fevral 1998-ci ildə dünyasını dəyişən, yurduna, elinə, dilinə ürəkdən bağlı olan H.Razi haqda yazını onun öz sözləri ilə bitiririk: "Bu möhtəşəm sənət dünyasından bir neçə misranı adıma, ünvanıma yaza bilsəm, kitablarımda bu gülüstanın bir qönçəsi görünərsə, zəhmətimin bəhrəsiz olmadığına şübhəm qalmayacaqdır".

**Əsəd QULİYEV**
**sənətşünas, AMEA-nın dissertantı**

# Xudutəpə qədim yaşayış məskənində arxeoloji tədqiqatlar

AMEA-nın Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent Anar Ağalarzadənin rəhbərliyi altında "Cəlilabad arxeoloji ekspedisiyası" həmin rayonun Çəmənli kəndi ərazisindəki Xudutəpə çoxtəbəqəli yaşayış məskənində arxeoloji qazıntılar aparıb.

Sahəsi 7 hektara yaxın olan abidə Cəlilabad-Yardımlı şose yolunun 22-ci km-də, Çəmənli və Cəlayir kəndləri arasında, hündür təpə üzərində yerləşir. Yerli tarixçi Rza Rzayevin məlumatı əsasında abidəyə ilk dəfə olaraq XX əsrin 90-cı illərində arxeoloq Fərman Mahmudov baxış keçirib və onu çoxtəbəqəli yaşayış məskəni kimi qeydə alıb. Lakin bu günə qədər Xudutəpədə heç bir arxeoloji qazıntılar aparılmayıb.



Son tədqiqatlar zamanı Xudutəpə abidəsinin şimal tərəfində aparılmış arxeoloji qazıntılar nəticəsində torpaq qəbirlər olduğu müəyyən edilib. Qazıntılar zamanı 3 qədim qəbirdə saxsı qablar aşkarlanıb. Qeyd etmək lazımdır ki, abidənin üzərindəki nekropol əsasən e.ə. VIII-VII əsrlərə aid sallama qəbirlər olub, yaşayış yerinin üzərində salınıb. Bunu sübut edən tutarlı faktlar qəbirlərin qazıntısı zamanı alt qatlardan qarışaraq üzə çıxmış orta əsrlər, Son Tunc-İlk Dəmir və İlk Tunc dövrü Kür-Araz mədəniyyəti saxsı qab nümunələridir. Lakin təpənin bu hissəsində yaşayış yerinin qatları zəif izlənilir və ehtimal ki, bu, daimi yaşayış üçün az əlverişli hissə olub.

Təpənin cənub-qərb hissəsində, nisbətən ətəkdə 75 kvadratmetr sahədə aparılmış yoxlama qazıntıları nəticəsində isə qalın mədəni təbəqə üzə çıxıb. Abidənin 40 sm qalınlığında üst qatı orta əsrlər dövrünə aid materiallarla müşayiət olunur. Daha alt qatlarda isə Son Tunc-İlk Dəmir və İlk Tunc dövrü təbəqələri bir-birini əvəz edir. Ən alt qatda isə Eneolit dövrünün artefaktları, Əliköməktəpə və Leylatəpə tipli saxsı qab nümunələri tapılıb.

Qazıntılar nəticəsində Kür-Araz təbəqəsindən çiy kərpicdən dairəvi tikili qalıqları, təsərrüfat quyuları, ocaq yerləri də üzə çıxıb. Abidənin bu hissəsində 2 metr qalınlığında mədəni təbəqənin olduğu müəyyən edilməklə Xudutəpədə e.ə. VI minillikdən başlayaraq son orta əsrlərə kimi yaşayışın mövcud olması dəqiqləşdirilib. A.Ağalarzadənin ehtimalına görə, abidənin mərkəzi hissəsində mədəni təbəqənin qalınlığı 4 metrə yaxın ola bilər.

Gələcəkdə yaşayış məskənində aparılacaq genişmiqyaslı kompleks arxeoloji tədqiqatlar daha maraqlı elmi faktların üzə çıxmasına imkan verəcək.

## Nizami sözündən incilər

# Torpağa mərhəmət xeyirdir, inan...

Nizami Gəncəvinin "Xəmsə"si dünya poetik-fəlsəfi fikrinin zirvəsində dayanır. "Xəmsə"yə daxil olan beş poema-məsnəvidə bütün zamanların ən humanist, ümumbəşəri idealları parlaq bədii əksini tapıb. "Nizami Gəncəvi İli" qüdrətli söz ustadının misilsiz xəzinə olan ədəbi irsinin təbliği, eyni zamanda tədqiq edilməsi və öyrənilməsi üçün yeni zəmindir.

"Nizami sözündən incilər"də dahi şairin möhtəşəm beşliyindən növbəti seçmələri təqdim edirik.

*Hər şeyi özünçün əkmək nə yarar?*
*Dünyada hesabsız ruzi yeyən var.*
*Keçənlər zəhmətlə əkdiyi bağdan*
*Gələnlər meyvəni dərmiş hər zaman.*

**("İsgəndərnamə" – "Şərəfnamə")**



*Hər zaman rəiyyətin diləyinə qulaq as,*
*Ürəkdən məzlumların ürəyinə qulaq as.*

**("Sirlər xəzinəsi")**

*Qohumdan mehriban yadlar az deyil,*
*Həm vəfalı, sadiq, həm də şirindil.*

**("Xosrov və Şirin")**

*Torpağa mərhəmət xeyirdir, inan,*
*Lütf etsən gül verər, zülm etsən tikan.*

**("Leyli və Məcnun")**

*Ovçu səbirsizlik göstərsə əgər,*
*Ox nişanəyə dəyməz, yan gedər.*

**("Yeddi gözəl")**

*Nə çox əylənən ol, nə də çox yeyən,*
*Bunlardan süstləşər, boşalar bədən.*

**("İsgəndərnamə" – "İqbalnamə")**

# Ənənədən müasirliyə

Qədim tarixə və zəngin bədii ənənələrə malik olan Azərbaycan xalça sənətinin özünəməxsus estetikasına müasir dövrdə yeniliklərin əlavə edilməsi nə qədər mümkünsüz görünsə də, həm ötən, həm də yaşadığımız müasir yüzillikdə buna qismən də olsa şahidlik edə bilmişik. Bu yeniliklərin yaradıcıları isə bir qayda olaraq klassik bədii prinsiplərə tapınan el sənətkarları yox, ali təhsil ocaqlarında görkəmli xalça ustası Lətif Kərimovdan dərs almış nəslin nümayəndələridir. Onların sırasında Xalq rəssamı Eldar Mikayılzadə, Əməkdar rəssamlar Arif İsmayılov, Aydın Rəcəbov, Məmmədhüseyn Hüseynov və Taryer Bəşirovla, eləcə də Eldar Hacıyev, Tahir Məcidov, Fazil Abbasquluzadə və Afaq Kərimovanın adlarını çəkmək olar.



Etiraf edək ki, zamanında A.Kərimovadan fərqli olaraq adlarını çəkdiyimiz digər müəlliflərin bədii-texniki improvizələrində nə qədər özünəməxsus estetik çalarlar müşahidə olunsa da, onların yaratdıqlarında klassikaya sıx bağlılıq hələ də qalmaqda idi. Afaq Kərimova isə təhsil sonrası bir neçə xalçasında ("Sənsiz", "Natəvan", "Yeddi gözəl") özünün ənənəyə tapındığını sərgiləsə də, çox tezliklə ənənəviləşən bədii həddi aşmağa, ona yeni çalarlar əlavə etməyə cəhd etdi.

Onun 1995-ci ildə ərsəyə gətirdiyi və bu gün Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində nümayiş etdirilən "Məhəmməd Füzuli" xalçası bunun ilk əyani görüntüsü oldu. Gənc müəllifin xalçanın ümumi formasını bütövlüyü əldə olunmuş iki hissəyə bölməsi öz-özlüyündə yeni idi. Doğrudan da, xalçanın düzbucaqlı formatının yuxarısına əlavə şairin portretini artıran və bu çıxıntının tacvarı görkəmini verən müəllifin bununla onun cəlbediciliyinə nail olmasını həm də ənənəvi bədii görkəmə yenilik bəxş etməsi baxımından çox maraqlı tapıntı saymaq mümkündür. Əsərin aşağı – mərkəzi hissəsində kitablı rəhilin üzərində "Leyli və Məcnun" poemasının qəhrəmanlarını üz-üzə qoyan rəssam, məna-məzmun daşıyıcılığı aydın duyulan bu fiqurları ümumi kompozisiyanın "tac"ı ilə əlaqələndirərək nakam məhəbbət dastanının obrazlı təcəssümünə nail olduğunu sərgiləyə bilmişdir.

Oxşar bədii yanaşmanı elə həmin ildə yaratdığı "Şəbi-hicran" xalçasında da tətbiq edən Afaq Kərimova təzadlı rəng çalarının köməkliyi ilə ayrılıq gecəsinin yaşantılarına cəlbedici və təsirli bədii yozum verməyə nail olmuşdur. Bu dəfə də ümumi kompozisiyanı iplərin rombvarı toxunuşu ilə iki qeyri-bərabər hissəyə bölən müəllif yuxarıdakı naxışlarla örtülmüş kiçik sahədə günəş və yazılı vərəqlərlə əhatələnmiş "Şəbi-hicran, yanar canım..." sözlərini həkk etdirmiş, aşağı iri sahənin yuxarı sonluğunu isə onu ilhamlandıran "Leyli və Məcnun" poemasının adını çıxıntı formalı yazılışı ilə tamamlamışdır. Qənaətimizcə, müəllif əsərin rəng təzadları ilə əldə olunmuş ümumi koloritində şairin misralarında ifadə olunmuş kədəri obrazlı tutum ilə ifadə edə bilmişdir. Ay işığı altında görüntüyə gətirilmiş aşiqlərin çöhrələrindəki ümidsizlik, eləcə də şamdandakı iki yanan şamın birləşməyə meylli olmamasını vurğuladığımız şair fikrinin obrazlı bədii təcəssümü hesab etmək olar.





Afaq Kərimovanın yaradıcılığında Hüseyn Cavid mövzusunun geniş yer tutması təsadüfi deyil. O, bu əsərləri dramaturqun Bakıdakı ev-muzeyinin rəssamı vəzifəsində çalışdığı illərdə ərsəyə gətirmişdir. Xalçalar Hüseyn Cavidə və onun ailə üzvlərinə həsr olunmuşdur. Əgər H.Cavidə həsr olunmuş əsərdə (1996) rəssam bir il əvvəl yaratdığı "Məhəmməd Füzuli" xalçasının bədii həll formasından yararlanıbsa, qalan üç toxuculuq nümunəsində ənənə ilə müasirliyin vəhdəti olaraq qəhrəmanlarının portretlərindən yuxarı hissəni tamamlayan cəlbedici element kimi istifadə etmişdir. Əsərlərin dominantına çevrilən portretlərin bədii həllində "xalça dili" estetikasına tapınıldığından, əldə olunan dekorativlik digər sahələrdəki ornament və təsvirlərlə ahəngdarlıq təşkil edir. Bu mənada "Hüseyn Cavid – əbədiyyət" (1996), "Müşgünaz Cavid" (2004), "Ərtoğrul Cavid" (2004) və "Turan Cavid" (2004) xalçalarında kompozisiyaları təşkil edən müxtəlif süjetli təsvirlərin cəlbedici estetikasının, həm də əsərlərin məna-məzmun yükünün dolğunluğunu şərtləndirdiyini deməliyik.

Afaq Kərimova hazırda Xalq şairi Səməd Vurğunun Bakıdakı ev-muzeyində nümayiş olunan "Könlüm keçir Qarabağdan" (2006) xalçasının bədii həllində də kompozisiyanın yuxarıdan "bədii tac"la tamamlanması ənənəsinə sadiq qalmışdır. Mərkəzi hissədə şairə Xurşudbanu Natəvanı, bəstəkar Üzeyir Hacıbəylini, xanəndə Xan Şuşinskini və şair Səməd Vurğunu görüntüyə gətirən rəssam vurğuladığımız "tac"da "Ayrılarmı könül candan, Azərbaycan, Azərbaycan..." sözlərini yazmışdır. Kompoziyaya daxil edilmiş digər çoxsaylı elementlərdə də əsərin ümumi ideyasının gücləndirilməsinə yardımçı ola biləcək məzmun yükü mövcuddur.

Müəllifin rəmzi elementlərlə zəngin olan "Azərbaycan" (2001) xalçasında da yuxarıda şərh etdiyimiz əsərin forma-biçim estetikasından istifadə olunmuşdur. Mərkəzi hissəni tutan və ornamentlərlə əhatələnmiş iri "göl"ün daxilində Azərbaycanın xəritəsi, yurdumuzu hifz edən ilahi qüvvələrin rəmzi-dekorativ təqdimatında ovqat-yaradıcı estetik çalarlar kifayət qədərdir. Bu dəfə xalçanın yuxarı sonluğunun dominantı kimi M.Ə.Rəsulzadənin məşhur "Bir kərə yüksələn bayraq, bir daha enməz!" kəlamı çıxış edir.

Elə həmin ildə ərsəyə gətirilən orijinal biçimli "Dədə Qorqud" üçlüyünün məna-məzmun tutumunda məşhur el ağsaqqalının dilindən səslənən fikirlərlə yanaşı, türk soyumuzun qədimiliyini təsdiqləyən tarixi-etnoqrafik tutumlu təsvirlər yer aldığından, bu dolğun məzmunlu əsər qürurverici mənəvi-estetik qaynaq kimi qəbul olunur.

Afaq Kərimova həm də "batik" texnikasında işlənmiş çoxsaylı dekorativ-tətbiqi sənət əsərlərinin müəllifi kimi tanınır. Rəng improvizələrinə geniş imkan verən bu texnikanın uğurlu tətbiqi sayəsində onun müxtəlif mövzulara həsr olunmuş çoxsaylı batik nümunələri mövcuddur. Bu mənada "Xarıbülbül" (1986), "Pərvanə" (1991), "İlham Əliyev" (1997), "Füzuli ədəbi məclisi" (2000), "Bacıma" (2000), "Nəsrin Ərbil" (2000), "S.Yesenin – ilham pərisi" (2001), "Leyli" (2002), "Məcnun" (2002), "Nazim Hikmət – ceviz ağacı" (2002), "Hürriyyət nəğməsi" (2003), "Alın yazısı" (2004), "Mehriban xanım Əliyeva" (2007) və digər əsərlərinin adını çəkmək olar. Bu batiklər mövzu baxımından nə qədər fərqli olsalar da, onların dərin məna tutumu ilə seçilən kompozisiyalarında tamaşıçının diqqətini cəlb edə biləcək, onu dialoqa çəkmək gücündə olan bədii ayrıntılar kifayət qədərdir.

2007-ci ildən Azərbaycan Rəssamlar İttifaqının üzvü olan Afaq Kərimovanın əsərləri dünyanın bir çox ölkələrində (ABŞ, Türkiyə, İspaniya, Fransa və s.) uğurla nümayiş etdirilmişdir. Onun xalça və batikləri yerli və xarici ölkə muzey və şəxsi kolleksiyalarını bəzəməkdədir.

**Ziyadxan ƏLİYEV**
**Əməkdar incəsənət xadimi, professor**

## Xatirə təqvimi — 16-19 oktyabr

### Azərbaycan

**16 oktyabr 1923** – Xalq yazıçısı, şair, ədəbiyyatşünas Gülhüseyn Hüseynoğlu (Gülhüseyn Hüseyn oğlu Abdullayev; 1923 – 8.7.2013) Masallı rayonunun Mollaoba kəndində doğulub. Azərbaycan ədəbiyyatında mənsur şeirin dəyərli nümunələrini yaradıb. BDU-nun professoru olub.

**16 oktyabr 1926** – Bəstəkar, pedaqoq, Xalq artisti, professor Ramiz Mustafayev (1926 – 10.4.2008) anadan olub. "Vaqif, "Polad", "Xan və əkinçi" operalarının, operettaların, simfoniyaların və s. müəllifidir. 1940-cı illərdə Akademik Dram Teatrında aktyor kimi fəaliyyət göstərib.

**16 oktyabr 1935** – Yazıçı və kinodramaturq Əli Hüseyn oğlu Qafarov (1935-1979) anadan olub. "Azərbaycanfilm"də çəkilmiş bir neçə bədii ("Qızıl qaz", "Çarvadarların izi ilə") və sənədli filmlərin ssenari müəllifidir.

**16 oktyabr 1946** – Kinooperator Köçəri Məmmədov (1946-2008) Gədəbəy rayonunda doğulub. Azərbaycanın yeni tarixini əks etdirən sənədli və xronikal filmlərin operatoru olub.

**16 oktyabr 1995** – Yazıçı Firudin Balakişi oğlu Ağayev (22.11.1933 – 1995) vəfat edib. Əsərləri əsasında "Skripkanın sərgüzəşti", "İşarəni dənizdən gözləyin" filmləri çəkilib.

**17 oktyabr 1915** – Operator, rejissor, Xalq artisti Cavanşir Musa oğlu Məmmədov (1915-1997) Şuşada doğulub. Müharibə illərində (1941-1945) Mərkəzi sənədli filmlər studiyasında fəaliyyət göstərib. Bakı kinostudiyasında sənədli filmlər çəkib.

**17 oktyabr 1924** – Şair Hüseyn Razi (Hüseyn Məmməd oğlu Rzayev; 1924 - 17.2.1998) Ordubad rayonunun Dəstə kəndində anadan olub.

**17 oktyabr 1936** – Yazıçı Çingiz Əbülhəsən oğlu Ələkbərzadə (1936 – 7.1.1999) anadan olub. "Güllələr dənizdə sönür", "Qızıl yəhərli at" və s. kitabların, "Vulkana doğru" filminin ssenari müəllifidir.

**17 oktyabr 1949** – Tanınmış dilçi alim, türkoloq, filologiya elmləri doktoru Məhəbbət Mirzəxan qızı Mirzəliyeva (1949 – 22.7.2016) Bakıda anadan olub.

**17 oktyabr 2003** – Tanınmış şair Nüsrət Yusif oğlu Kəsəmənli (29.12.1946 – 2003) vəfat edib. Bir çox şeirlərinə musiqi bəstələnib, sənədli filmlərin ssenari müəllifidir. "Azərbaycanfilm"də baş redaktor işləyib, "Doğma sahillər" filmində çəkilib.

**18 oktyabr 1926** – Teatr rejissoru, pedaqoq Nəsir Müseyib oğlu Sadıqzadə (1926-1996) Şuşada anadan olub. Akademik Dram, Gəncə, Sumqayıt və b. teatrlarda çalışıb, Mədəniyyət və İncəsənət Universitetində dərs deyib. Filmlərdə ("Qətl günü", "Bəxt üzüyü" və s.) çəkilib.

**18 oktyabr 1949** – Tanınmış rejissor, aktyor, Əməkdar incəsənət xadimi Vaqif İbrahimoğlu (Həsənov; 1949 – 12.5.2011) Bakının Mərdəkan qəsəbəsində doğulub. Musiqili Komediya, Milli Dram teatrlarında tamaşalar hazırlayıb. 1989-cu ildə Yuğ teatrını yaradıb. Filmlərdə çəkilib: "Qəm pəncərəsi", "Otel otağı" və s.

**19 oktyabr 1898** – Tanınmış ədəbiyyatşünas alim, Əməkdar elm xadimi, akademik Feyzulla Qasımzadə (1898 – 29.3.1976) Bakıda anadan olub.

**19 oktyabr 1932** – Əməkdar incəsənət xadimi, rəssam Sara Məmmədağa qızı Manafova (1932 –13.8.2007) Bakıda anadan olub. Füzulinin "Leyli və Məcnun" poemasına triptix, "Xocalı faciəsi. Haray" və s. tabloların müəllifidir. Əsərləri Moskvada Şərq Xalqları İncəsənəti Muzeyində saxlanılır.

**19 oktyabr 1972** – Opera müğənnisi, Xalq artisti Fatma Səttar qızı Muxtarova (26.3.1893 – 1972) vəfat edib. 1938-ci ildən Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti olub.

**19 oktyabr 1995** – Şair, dramaturq Novruz Gəncəli (Novruz İsmayıl oğlu Sadıqov; 12.9.1921 – 1995) vəfat edib.

### Dünya

**16 oktyabr 1888** – Amerika dramaturqu, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1936) Yudjin O'Nil (Eugene Gladstone O'Neill; 1888-1953) anadan olub. Pyesləri: "Üfüqün arxasında", "Buz paylayan gələcək", "Qarağaclar altında məhəbbət".

**16 oktyabr 1927** – Alman yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1999) Günter Qrass (Günter Wilhelm Grass; 1927 – 13.4.2015) anadan olub. Əsərləri: "Tənəkə təbili", "Pişik və siçan", "İt illəri", "İblisin gündəliyindən".

**17 oktyabr 1849** – Polyak bəstəkarı və pianoçusu, romantizmin parlaq nümayəndəsi Frederik Şopen (Fryderyk Chopin; 22.2.1810 – 1849) vəfat edib. Vals, noktürn, ballada, sonata və digər janrlarda əsərlərin müəllifidir.

**18 oktyabr 1859** – Fransız filosofu, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1927) Anri Berqson (Henri-Louis Bergson; 1859-1941) anadan olub. Əsərləri: "Yaradıcılıq təkamülü", "Materiya və yaddaş".

**19 oktyabr 1899** – Qvatemala yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1967) laureatı Migel Anxel Asturias (Miguel Angel Asturias; 1899-1974) anadan olub. Əsərləri: "Senyor prezident", "Dəfn olunmuşların başçısı" və s.

**Hazırladı: Vüqar ORXAN**

# "Nizami dünyası" intellektual müsabiqəsinin qalibləri mükafatlandırılıb



Paytaxt məktəbliləri arasında keçirilən "Nizami dünyası" mövzusunda intellektual müsabiqədə fərqlənənlər mükafatlandırılıb.

AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində keçirilən tədbirdə çıxış edən Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) müdiri Mehriban Vəliyeva müsabiqənin əhəmiyyəti barədə danışıb. Vurğulanıb ki, müsabiqənin məqsədi şagirdlərə dahi Nizami irsini aşılamaq, xüsusi istedada malik uşaqları üzə çıxarmaq və şagirdlərdə araşdırmaq, təhlil aparmaq bacarıqlarını inkişaf etdirməkdir.

Müsabiqə qaliblərinə diplom və hədiyyələr təqdim olunub.

Qeyd edək ki, mövcud epidemioloji vəziyyət nəzərə alınaraq onlayn keçirilən müsabiqədə 278 nömrəli tam orta məktəbin şagirdi Günay Məhərrəmova, 149 nömrəli tam orta məktəbin şagirdi Aysun Abbasova I yerə, 234 nömrəli tam orta məktəbin şagirdi Xəyyam İsmayılov, 164 nömrəli tam orta məktəbin şagirdi Məryəm İbrahimova II yerə, 299 nömrəli məktəb-liseyin şagirdi Nigar Kərimova və 249 nömrəli tam orta məktəbin şagirdi İnci Məlikli isə III yerə layiq görülüblər. Daha dörd şagirdə həvəsləndirici mükafat verilib.

# "Səhnə" adlı yeni teatr yaradılıb

Azərbaycanda "Səhnə" adlı yeni teatr yaradılıb. Teatr "1 Səhnə" prodüser mərkəzinin nəzdində açılıb. Mərkəzin direktoru, aktyor Elçin Hacı bu barədə məlumat verərək teatrsevərləri təbrik edib.

"Səhnə" teatrının bədii rəhbəri Xəqani Əliyev yaradıcı kollektivin insanlarda teatra marağı daha da artıracağına inandığını bildirib.

Teatrın ilk işi Mirzə Fətəli Axundzadənin "Hekayəti-müsyö Jordan həkimi-nəbatat və dərviş Məstəli şah cadukuni-məşhur" əsərinin motivləri əsasında hazırlanan "Bir dəfə Qarabağda" adlı etno muzikl janrında tamaşa olacaq. Tamaşa oktyabrın 30-31-də Dövlət Təhlükəsizliyi Xidmətinin Mədəniyyət Mərkəzində təqdim olunacaq. Biletləri iticket.az saytından əldə etmək olar.

Tamaşanın rejissoru Elvin Mirzəyev, bəstəkarı Azər Hacıəsgərli, şeirlərin müəllifi Eminquey Akifdir. Rolları Elçin Hacı, Əhliman Ərşadlı, Ramil Məmmədov, Mətanət Eres, Abdulla Elşadlı, İranə Kərimova, Ülvi Haşim və Ruhiyyə Yəhyayeva canlandıracaq. Tamaşada səsləndirilən musiqilər qədim milli musiqi alətlərindən ibarət "Əsrlərin sədası" ansamblına məxsusdur. Ansamblın bədii rəhbəri Məmmədəli Məmmədovdur.

# Bakı Fotoqrafiya Evində "Litva tatarları" sərgisi

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi və Litvanın Azərbaycandakı Səfirliyinin təşkilatçılığı ilə Bakı Fotoqrafiya Evində açılan "Litva tatarları" adlı fotosərgi davam edir.

Tarixi və müasir fotoşəkillərdə XX əsrin birinci yarısından bu yana tatarların Litva cəmiyyətinin müxtəlif sahələrində verdiyi töhfələr, tatar icmasının həyatının əsas istiqamətləri əksini tapıb.

Qeyd edək ki, Litva Parlamenti tərəfindən bu il ölkədə "Litva Tatarlarının Tarixi və Mədəniyyət İli" elan olunub. XIV əsrdən etibarən tatarlar İslama əsaslanan unikal və özlərinə məxsus mədəniyyəti qoruyaraq, eləcə də yerli dilləri doğma qəbul edərək Litvada məskunlaşmağa başlamışlar.



"Litva tatarları" sərgisi noyabrın 2-dək davam edəcək.

# Sivilizasiyaların qarşılıqlı öyrənilməsi – bəşəriyyət üçün birgə gələcək

## Azərbaycan Tayhu Dünya Mədəniyyət Forumunda fəxri qonaq statusunda iştirak edib

Çin Xalq Respublikasının Benbu şəhərində 11-13 oktyabr tarixində keçirilən Tayhu Dünya Mədəniyyət Forumunun (Taihu World Cultural Forum) 6-cı illik konfransında Azərbaycan "fəxri qonaq ölkə" statusunda təmsil olunub.

Dünyada mədəniyyət sahəsində nüfuzlu müzakirə platformalarından olan Tayhu Forumunun builki devizi "Sivilizasiyaların qarşılıqlı öyrənilməsi: bəşəriyyət üçün birgə gələcəyin qurulması"dır. Bu il 30-dək ölkənin qatıldığı Tayhu Forumunun tarixində ilk "fəxri qonaq ölkə" Azərbaycan olub. Bundan başqa, Heydər Əliyev Fondu Forumun təşkilatçıları sırasındadır.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi Anar Ələkbərov oktyabrın 12-də rəsmi açılış mərasimində dövlət başçısı İlham Əliyevin Tayhu Dünya Mədəniyyət Forumunun 6-cı illik konfransının iştirakçılarına müraciətini videoformatda çatdırıb. Müraciətdə qeyd olunur ki, Çin Xalq Respublikasının himayəsi ilə keçirilən bu beynəlxalq tədbirin nüfuzu ilbəil artır və Tayhu Forumu dünyanın bir çox ölkəsindən görkəmli siyasətçiləri, alimləri, yaradıcı ziyalıları yenə də bir araya toplamaqla mədəniyyətlərarası dialoqa öz əhəmiyyətli töhfəsini verir. Builki foruma Azərbaycanın fəxri qonaq statusunda dəvət edilməsi, eləcə də Heydər Əliyev Fondunun tədbirin əsas həmtəşkilatçılarından biri kimi çıxış etməsi məmnunluq doğurur.



"Dünyanın indiki həssas və təlatümlü dövründə "Sivilizasiyalararası dialoq: bəşəriyyət üçün ortaq gələcəkli cəmiyyətin birgə qurulması" mövzusunun müzakirəsinə ciddi ehtiyac vardır. Xüsusilə, dünyanı cənginə almış COVİD-19 pandemiyasının yaratdığı mürəkkəb vəziyyət və bəşəriyyətin qarşılaşdığı çağırışlar sivilizasiyalararası dialoqun və qarşılıqlı dəstəyin nə qədər vacib olduğunu bir daha təsdiqləyir.

Azərbaycanda dövlət siyasətinin əsas prioritetlərindən biri də multikulturalizmdir. Multikulturalizm xalqımızın həyat və yaşam tərzini özündə əks etdirən mühüm dəyərlərdəndir. Məhz bu səbəbdən müxtəlif mədəniyyətlərin nümayəndələrinin bir araya gəlməsini və qlobal problemlərin həlli istiqamətində müzakirələri vacib sayır və Tayhu Forumunun builki toplantısı çərçivəsində də bu məsələlərin diqqət mərkəzində saxlanılacağına inanırıq", - deyə Prezident İlham Əliyevin müraciətində bildirilir.

Forumun bölmə iclaslarında mədəni müxtəlifliyin təşviqi, "Bir kəmər, bir yol" sivilizasiyanın keçmişi və gələcəyi, iqlim dəyişikliyinə qarşı birgə mübarizə, yoxsulluğun azaldılması, bəşəriyyət üçün birgə gələcəyin qurulmasında elm və texnologiyanın dəstəyi mövzuları müzakirə olunub.

Tayhu Dünya Mədəniyyət Forumu Çin hökumətinin dəstəyi ilə 2008-ci ildə yaradılıb. 2011-ci ildən illik iclasları keçirilməyə başlanılıb.

Xəbər verdiyimiz kimi, bu il, həmçinin Benbu şəhərində Tayhu Dünya Mədəniyyət Forumunun mənzil-qərargahının yerləşdiyi "Qədim məskənlər" parkında Heydər Əliyev Fondu tərəfindən yaradılan "Azərbaycan mədəniyyətinə pəncərə" adlı milli pavilyon fəaliyyətə başlayıb. Pavilyonun açılışı ilə bağlı rəsmi sənədi Çin Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü Van Çen və Azərbaycanın Çin Xalq Respublikasındakı səfiri Əkrəm Zeynallı imzalayıblar.

Oktyabrın 11-də Çin rəsmiləri, diplomatik korpusun təmsilçiləri Azərbaycan pavilyonunda olublar. Əldə olunmuş razılığa əsasən, pavilyon uzunmüddətli əsasda fəaliyyət göstərəcək və "Qədim məskənlər" mədəniyyət parkının ziyarətçiləri Azərbaycan mədəniyyəti haqqında məlumat əldə edə biləcək.

# Azərbaycan filmi "Asia Pacific Screen Awards"ın nominantları sırasında

14-cü "Asiya və Sakit Okean Ölkələri Ekran Mükafatları"na (Asia Pacific Screen Awards) namizədlər elan olunub. 25 ölkədən 38 filmin nominant olduğu mükafatların qalibləri noyabrın 14-də Avstraliyada keçiriləcək tədbirdə açıqlanacaq.




C.Cabbarlı adına "Azərbaycanfilm" Kinostudiyasından bildirilib ki, İlqar Nəcəfin "Suğra və oğulları" filmi "ən yaxşı ssenari" nominasiyasına namizəddir.

Film İkinci Dünya müharibəsi zamanı ucqar dağ kəndində baş verən hadisələrdən bəhs edir. Kəndin kişiləri müharibəyə gediblər. Suğra da kəndin digər qadınları kimi ağır məişət işləri görür, övladlarını böyüdür. Suğranın böyük oğlu Musanı cəbhəyə çağırırlar. Bu xəbərdən sonra Suğranın həyatında dramatik dönüş başlanır...

Filmin çəkilişləri 2019-cu ilin noyabr-dekabr aylarında Daşkəsən rayonunun Suqovuşan kəndində aparılıb. Ekran əsərinin baş prodüseri İlqar Nəcəf, prodüserləri Orman Əliyev və Ayhan Salar, rejissoru İlqar Nəcəf, ssenari müəllifləri Asif Rüstəmov, Roelof Jan Minneboo və İlqar Nəcəfdir. Əsas rolları Günəş Mehdizadə, İlqar Cahangir, Hümbət Əhmədzadə və Paşa Məmmədli ifa edirlər. Filmin təsvir rejissoru Ayhan Salardır.

"Butafilm", Bakı Media Mərkəzi, "Arizona Production" (Fransa) və "Salarfilm"in (Almaniya) birgə istehsalı olan "Suğra və oğulları" bədii filmi hazırda Cənubi Koreyada A kateqoriyalı Busan Beynəlxalq Film Festivalının müsabiqə bölməsində iştirak edir.

Xatırladaq ki, rejissor İlqar Nəcəfin "Buta" filmi 2011-ci ildə "Asia Pacific Screen Awards"ın "ən yaxşı uşaq bədii filmi" nominasiyasında mükafat qazanıb.

# Boğaziçi festivalında iki filmimiz yarışacaq

Xəbər verdiyimiz kimi, 23-30 oktyabr tarixində İstanbulda 9-cu Boğaziçi Beynəlxalq Film Festivalı keçiriləcək. Gənc prodüserlərə və rejissorlara yeni filmlər çəkmək üçün maddi və mənəvi dəstək yaratmaq məqsədi daşıyan festivalda Azərbaycan kinosu da təmsil olunacaq.




"Beynəlxalq qısametrajlı bədii film" bölməsində Teymur Hacıyevin "Axşama doğru" filmi mükafat uğrunda yarışacaq. Bu bölmədə Fransa, Çin, ABŞ, Rumıniya və digər ölkələrdən 9 film yer alıb.

"Beynəlxalq qısametrajlı sənədli film" bölməsində isə Fariz Əhmədovun "Sonuncu" filmi mübarizəyə qoşulub. "Sonuncu" filmi də öz kateqoriyasında müxtəlif ölkələrdən 9 filmə qarşı yarışacaq.

Qeyd edək ki, festivalın "beynəlxalq bədii film" kateqoriyasının münsiflər heyətində azərbaycanlı rejissor Hilal Baydarov da var.

# Ənənəvi Tbilisoba bayramı təxirə salınıb

Gürcüstan paytaxtında ənənəvi olaraq hər il təşkil edilən Tbilisoba bayramı bu il keçirilməyəcək. Bu barədə Tbilisi şəhəri merinin vəzifələrini icra edən Kaxa Kaladze məlumat verib.




Onun sözlərinə görə, əvvəlcə pandemiya səbəbindən bayram konsertinin və "Tbilisinin fəxri vətəndaşı" adına layiq görülənlərin mükafatlandırılmasının televiziya vasitəsilə keçirilməsi nəzərdə tutulmuşdu. Lakin oktyabrın 8-də Batumidə baş vermiş qəza (yaşayış binasının çökməsi) səbəbindən konsert və digər təntənəli tədbirlər də olmayacaq. Bayram tədbirinin keçirilməsi üçün büdcədən ayrılmış vəsait isə "Faciədən zərər çəkmiş insanlara yardım Fondu"na köçürüləcək.

Kaxa Kaladze qeyd edib ki, oktyabrın 23-24-də Tbilisidə bayrama həsr olunmuş "Payız hədiyyələri" yarmarkası keçiriləcək.

# Turizm imkanlarımız Ukraynada təbliğ edilib



Azərbaycan Turizm Bürosu oktyabrın 12-də Ukraynanın Kiyev şəhərində keçirilən "Deluxe Travel Market" adlı vorkşopda ölkəmizin turizm imkanlarını təbliğ edib.

Dövlət Turizm Agentliyindən bildirilib ki, vorkşopda 30-dan çox şirkətlə B2B (Biznesdən biznesə) formatında görüşlər keçirilib.

Görüşlərdə Azərbaycana ukraynalı turistlərin cəlb olunması, turizm şirkətləri ilə tərəfdaşlığın qurulması, eləcə də iki ölkə arasında aviauçuşlar kimi məsələlər müzakirə olunub.

Həmçinin görüş iştirakçılarına ölkəmizdə fəaliyyət göstərən hotellər, pandemiya şəraitində ictimai məkanlarda tətbiq olunan qaydalar haqda məlumat verilib.

Sərhədlərin açılmasından sonra Ukrayna turizm şirkətlərinin Azərbaycanda işgüzar və müalicəvi turizm, ekoturizm və ekskursiyalar kimi turizm məhsullarına maraq göstərəcəyi bildirilib.

# Özbəkistan universitetinə ölkəmizlə bağlı kitablar hədiyyə olunub



Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi (AMM) ilə Özbəkistan Jurnalistika və Kütləvi Kommunikasiyalar Universiteti arasında imzalanan memoranduma əsasən, bu təhsil ocağına ölkəmizlə bağlı kitablar hədiyyə edilib.

Universitetə Heydər Əliyev Fondunun "Qarabağ həqiqətləri" seriyasından rus və ingilis dillərində nəşrləri, Azərbaycan Mədəniyyət Nazirliyinin dəstəyi ilə AMM-in özbək dilində ölkəmizin tarixi, mədəniyyəti, ədəbiyyatı ilə bağlı çap etdirdiyi kitablar təqdim edilib.

Təqdim edilən nəşrlər arasında AMM-in özbək dilində çap etdirdiyi Nizami Gəncəvinin "Xəmsə"si, İmadəddin Nəsiminin şeirlər toplusu, "Azərbaycanca-özbəkcə, özbəkcə-Azərbaycanca lüğət", Azərbaycan-Özbəkistan ədəbi əlaqələri mövzusunda kitablar da var.




# Ankarada 25-ci Beynəlxalq Caz Festivalı başlayıb

Oktyabrın 14-də Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi və Türkiyə Caz Dərnəyinin təşkilatçılığı ilə Ankarada 25-ci Beynəlxalq Caz Festivalı başlanıb. Türkiyə Mədəniyyət və Turizm Nazirliyindən verilən məlumata görə, festivalın builki mövzusu "Cazda davamlılıq"dır.

Yerli sənətçilərlə yanaşı 4 ölkədən olan musiqiçilərin də qatıldığı festivalın açılış mərasimi Hərbi Hava Qüvvələri Komandanlığının Qartal Caz Orkestrinin konsert proqramı ilə gerçəkləşib. Konsertdən əvvəl Türkiyə Caz Dərnəyinin 25-ci il xüsusi mükafatı məşhur caz sənətçisi Tuna Ötenelə təqdim olunub.

Festival oktyabrın 24-dək davam edəcək. Sənətsevərlərin on gün caz ritminə heyran qalacaqları festival çərçivəsində bəzi tədbirlərə qatılmaq ödənişsizdir.

**Mehparə SULTANOVA**
**Ankara**

# Kərgədan ömrü

İtaliyanın şimalındakı Verona şəhəri yaxınlığında yerləşən "Parco Natura Viva" zooparkında saxlanılan dünyanın ən yaşlı kərgədanı ölüb.



54 yaşlı "Nonno Toby"nin mumiyalanacağı və 5 il əvvəl eyni zooparkda ölən ağ aslan "Blanco"nun yanında, Trentodakı "Mu-Se" elm muzeyində sərgilənəcəyi bildirilib.

"Parco Natura Viva" zooparkında yalnız bir ağ kərgədan qalıb ki, o da 39 yaşlı "Benno"dur.

Nəsli kəsilməkdə olan şimal ağ kərgədan alt növlərindən isə 2-sinin sağ qaldığı, onların Keniyada silahlı mühafizəçilərin nəzarəti altında saxlanıldıqları bildirilib.

# 1 avroya ev var

## Lakin alandan sonra öhdəliyi də var...

İtaliyanın paytaxtı Romadan təxminən 150 kilometr uzaqlıqdakı Abruzzo bölgəsinin Pratola Peligna qəsəbəsindəki evlər 1 avroya satışa çıxarılıb.



Dağ-xizək kurortlarının yaxınlığında yerləşən qəsəbədəki 630 boş binadan 250-si satılacaq. Bu addımın atılmasına səbəb əhalisi iki dəfəyədək azalan (13 mindən 7 minə) qəsəbədə həyatı canlandırmaqdır. Qəsəbədə 1 avroya mülk sahibi olanlar həmin evləri yenidən qurmaq barədə öhdəlik götürəcəklər.

"Məqsədimiz müəyyən vaxt ərzində evlərin hamısında yaşayışı təmin etmək və onları əvvəlki gözəlliyinə qovuşdurmaqdır", – deyə yerli bələdiyyə məclisinin üzvü Paolo Di Bacco bildirib.

O, satış prosedurlarını sürətləndirmək və alıcıları maksimum 3 il ərzində yeni evlərini qurmağa təşviq etmək üçün yeni qaydaların tətbiq edildiyini söyləyib. Evlər üçün depozit tələb olunmur, lakin mülk sahibləri 6 ay ərzində tikinti işlərinə başlamayacaqları təqdirdə, onları 10 min avro cərimə gözləyir.

Satışa çıxarılan evlər Pratola Peligna bələdiyyəsinin saytına müntəzəm olaraq yüklənir.

Qeyd edək ki, qəsəbədə yaşayan yerli əhali böyük şəhərlərə köçüb, 2009-cu ildə baş verən zəlzələdə isə buradakı evlərin vəziyyəti daha da pisləşib. Bununla belə, Alp dağlarının xizək yamaclarına yaxın olan və Orta əsrlər memarlığının üstünlük təşkil etdiyi qəsəbənin turistləri cəlb etmək potensialı var.

Bundan əvvəl də İtaliyanın müxtəlif bölgələrində də bu kimi addımlar atılmış, evlər bir avroya satışa çıxarılmışdı.

**CAVİD**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279
**İndeks:** 0187
**Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 4736
**Sifariş:** 1979
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.